www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20-21 avqust 2016-cı il Şənbə № 183 (6504) Qiymәti 60 qәpik

**Xəbər**

**Qubada 55 yaşlı müəllim "Facebook"da intihar edəcəyini yazıb, özünü asıb**

yazısı səh.14-də

## Gündəm

**Ermənistanda siyasi intriqalar qızışır - baş nazirin istefası gündəmdə**


Ovik Abramyan

Düşmən ölkədə iqtidardaxili qruplar bir-birini hədəfə alıb; ölkə xaosa sürüklənir

yazısı səh.4-də

*Mübariz Qurbanlı:*
**"Gülənçilərlə bağlı məlumatı lazımi qurumlara çatdırmışıq"**

yazısı səh.12-də

**Azərbaycan-Qərb münasibətləri yenidən gərgin müstəviyə keçir**

yazısı səh.8-də

**Rəsmilərin "ölkədə təxribatlar ola bilər" bəyanatına ilginc reaksiyalar**

yazısı səh.6-da

**Rövşən Lənkəranski bu maşına minsəydi, sağ qalacaqdı...**

yazısı səh.15-də

**Müəllimlərin işə qəbulu bitdi, etirazlar başladı**

yazısı səh.12-də

**Amerika ölkəmizdə real müxalifət kimi REAL-ı görür?**

yazısı səh.6-da

**Məktəbli bazarı: bir uşaq üçün ən azı 180 manat lazımdır**

yazısı səh.13-də

**Rusiya prezidentinin xüsusi nümayəndəsi:**
"Xalq diplomatiyasını bərpa etmək lazımdır"

yazısı səh.11-də

**Ankara-Tehran-Moskva Qərbə qarşı koalisiya, yoxsa...**

yazısı səh.5-də

**Sifarişli qətllərdə sirr pərdəsi-sabiq polis rəisi danışır**

yazısı səh.12-də

## Qarabağ iki qlobal güc arasında yeni nifaq alması qismində

# ABŞ ERMƏNİSTANDA RUSİYA ƏLEYHİNƏ "QARABAĞ BOMBASI" HAZIRLAYIR - ŞOK İDDİA

Moskva-Ankara münasibətlərinin normallaşması Güney Qafqaz uğrunda ABŞ-Rusiya rəqabətinə xüsusi rəng qatıb; rusiyalı ekspert: "Kremlin üç stulda əyləşmək siyasəti yanlışdır, Türkiyə və Azərbaycan bizə Ermənistandan qat-qat vacibdir..."



yazısı səh.9-da

## "Lənkəranski"nin qətl müəmması-yeni şok faktlar və həbslər...

"Qanuni oğru" izdihamla son mənzilə yola salındı; 15 gün əvvəl onu türk polisindən qurtaran Sedat Pekər kimdir?; saxlanılanlar arasında Azərbaycanda otelləri olan biznesmen də var

yazısı səh.3-də



*Sərdar Cəlaloğlu:*
**"YAP-a debatlara çıxmaq qadağası qoyulub"**

yazısı səh.7-də


Rəşadət Axundov

**NİDA liderindən önəmli açıqlamalar**

yazısı səh.7-də



*Siyavuş Novruzov:*
**"Biz Afrika ölkəsiyik, yoxsa "banan" ölkələrindən biriyik?"**

yazısı səh.10-da

## Fətullah Gülənin tərəfdarları həbs olunub

**Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatında bildirilir ki, "Bakcell LTD" MMC-də əsas şəbəkə üzrə baş mühəndis vəzifəsində işəəyən Şahin İsrayılov, "Azerfon" MMC-də "Zənglər mərkəzi"ndə operator vəzifəsində işləyən Fuad Əhmədli, "Azercell Telecom" MMC-nin müştəri xidmətində operator vəzifəsində işləyən Etibar Musayev ölkə ərazisində mobil rabitə xidmətləri göstərən həmin şirkətlərdə işə başladıqları vaxtdan 18 avqust 2016-cı ilədək olan müddət ərzində öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə Vüqar Qasımovun və digər şəxslərin müraciətləri əsasında qanunsuz olaraq mütəmadi surətdə həmin mobil operatorların çoxsaylı abunəçilərinə dair fərdi məlumatları, o cümlədən abunəçilərin anket məlumatlarını, zəng tarixçələrindən çıxarışları, antenalar üzrə vətəndaşların olduqları yerlər və yerdəyişmələri və sair qapalı məlumatları çıxararaq, SMS yazışmaları və müxtəlif gizli üsullarla Vüqar Qasımova və digər şəxslərə ötürdükləri, fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurduqları müəyyən edilib.**

Azərbaycan Xalq Cəbhəsi Partiyasının Xətai rayon Gənclər təşkilatının sədri olduğu müəyyən edilmiş Fuad Əhmədlinin yaşadığı ünvana keçirilmiş baxış zamanı ona məxsus əşyaların arasında qanunvericiliklə qadağan edilmiş dini ədəbiyyat və CD disklər, Fətullah Gülənin çıxışları olan vərəqələr, "Gülən camaatı" adlandırılan qrupun üzvləri, "Hizmət imam"ları adlandırılan şəxslər və onların qarışılıqlı əlaqələrinə dair sənədlər, Vüqar Qasımovun yaşadığı ünvana keçirilmiş baxış zamanı ona məxsus əşyaların arasında çoxsaylı Azərbaycan Respublikası vətəndaşlarının şəxsi sənədlərinin surətləri, onun adına rəsmiləşdirilmiş xeyli sayda mobil telefon nömrələri və qanunsuz fəaliyyətinə aid digər əşyalar aşkar edilib. Onların barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Milli Məclisin komitə iclasları 15 sentyabrdan sonra başlayacaq

**"Parlamentin qarşıdan gələn payız sessiyasının ilk komitə iclasları sentyabrın 15-dən sonra başlayacaq". Bu barədə modern.az-a açıqlamasında Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli məlumat verib. Deputat bildirib ki, parlamentin komitə iclasının sentyabrın 15-dən sonra başlaması referendumla əlaqədardır:**

"Referenduma görə Milli Məclisin ilk komitə iclasları sentyabrın 15-dən sonra başlayacaq. Hadı Rəcəbli deyib ki, referendumla Konstitusiyaya ediləcək dəyişiklərdən sonra qanunvericilik aktlarına əlavə və dəyişiklər baş tutacaq: "Referendum keçirilib qurtardıqdan sonra müvafiq olaraq hansı qanunlara və qanunvericilik aktlarına əlavə və dəyişiklər nəzərdə tutularsa, onlara da dəyişiklər ediləcək. Referendumun nəticələri tam bəlli olduqdan sonra ölkə prezidenti tərəfindən Konstitusiyaya edilmiş dəyişiklər təsdiqlənəcək. Onda sonra da buna müvafiq olaraq Konstitusiyada dəyişiklik edilmiş maddələrə uyğun gələn qanunlarda da dəyişiklər olacaq"-deyə Hadı Rəcəbli bildirib.

Xatırladaq ki, Azərbaycanda 26 sentyabrda konstitusiyaya ediləcək dəyişiklərlə bağlı referendum keçiriləcək. Belə ki, bu dəfə baş tutacaq referendumla Konstitusiyanın 22 maddəsində 44 dəyişiklik ediləcək.

## Bakıda 6 yaşlı uşaq dənizdə batıb

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhəri, Suraxanı rayonunda 1 nəfərin (ən yaxınlıqdakı xilasetmə məntəqəsindən 700 metr sola nəzarətsiz ərazidə) dənizdə çimərkən batması barədə məlumat daxil olub.**

APA-nın FHN-in saytına istinadən verdiyi məlumata görə, Nazirliyin Dövlət Sularda Xilasetmə Xidmətinin xilasedicilər hadisə yerinə cəlb olunaraq 2010-cu il təvəllüdlü Fəraiz Xəraiz oğlu Mirzəyevin cəsədini sudan çıxarıblar.

## Ermənilər Cıdır düzündə qazıntılara başladılar

**Dağlıq Qarabağın sərvətlərini talamaqda davam edən Ermənistan rəhbərliyi bu dəfə Şuşa yaxınlığında, Cıdır düzünün bir addımlığında yerləşən Daşaltı vadisində qazıntı işlərinə başlayıb. Modern.az Ermənistan KİV-nə istinadla xəbər verir ki, yeni vandalizm aktı Daşaltı vadisində yerləşən qədim mağaraları hədəf alıb. Qazıntı işlərinə yerli və əcnəbi mütəxəssislər cəlb olunub.**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Pərviz Həşimlini 50 manat cərimələdilər

### Generalın xanımı və sürücüsünün hücumu jurnalistin məhkəməsi ilə yekunlaşdı



**Nərimanov rayon Məhkəməsində Gununsesi.info saytının baş redaktoru, sabiq vicdan məhbusu Pərviz Həşimli ilə milli təhlükəsizlik nazirinin sabiq müavini Hilal Əsədovun sürücüsü Zöhrab Muradov arasında dünən baş vermiş insidentlə bağlı məhkəmə prosesi artıq yekunlaşıb. Bu barədə P.Həşimli müsavat.com-a açıqlamasında bildirdi.**

Onun sözlərinə görə, Nərimanov Rayon Məhkəməsinin hakimi Rəşad Abdulovun sədrliyi ilə keçirilən prosesdə ona və Z.Muradova 50 AZN məbləğində cərimə cəzası kəsilib. Bu, Nərimanov rayon Polis İdarəsinin 16-cı Polis Bölməsinin təqdimatına əsasən, İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi ilə daxil olan protokolla əlaqədar baş verib. P.Həşimli sözügedən qərardan yuxarı məhkəmə instansiyasına şikayət edəcək.

Musavat.com xatırladır ki, avqust ayının 18-də P.Həşimli Gənclik həndəvərindəki bir yeməkxanadan çıxan vaxt milli təhlükəsizlik nazirinin eks müavini Hilal Əsədovun həyat yoldaşı, 14 saylı Uşaq Poliklinikasının müdiri Nüşabə Əsədova və onun sürücüsü ilə qəfil qarşılaşması zamanı insident yaşanıb. N.Əsədova sürücüsünə "mənim poliklinikanın baş həkimliyindən çıxarılmağımla bağlı xəbəri yazan adam budur" deyərək P.Həşimlini nişan verib. Sürücü də Pərvizə yaxınlaşaraq onun yalan məlumat yazdığını deyib. Bu zaman mübahisə uzanıb. P.Həşimli bu baş verənləri telefonun yaddaşına köçürüb. Mübahisənin uzanmasını istəməyən P.Həşimli hadisə yerindən uzaqlaşanda isə sürücü arxadan ona yaxınlaşaraq orda yazılanları silmək üçün mobil telefonunu almağa cəhd edib. İnsidentə polis müdaxilə edib və hər iki tərəf polis bölməsinə gətirilib.

❑ SEVİNC

## Prezident təhsil nazirini dəyişdi

**Rusiya prezidenti Vladimir Putin təhsil naziri Dmitri Livanovu istefaya göndərib. "İnterfaks" xəbər verir ki, onun yerinə Prezident Administrasiyasının əməkdaşı, tarix elmləri doktoru Olqa Vasilyeva təyin olunub. Məlumatda o da bildirilir ki, D.Livanov da işsiz qalmayıb. Belə ki, V.Putin onu özünü Ukrayna ilə ticari-iqtisadi əlaqələr üzrə xüsusi nümayəndəsi təyin edib.**

## İstilər davam edir

**Şənbə günü - avqustun 20-də Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 22-26° isti, gündüz 33-38° isti olacağı gözlənilir. Bakıda gecə 23-25° isti, gündüz 36-38° isti olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 24-25°, Buzovna, Mərdəkan, Şüvəlanda 25-26°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti olacağı gözlənilir.

Tibbi meteoroloji proqnoza gəlincə, yaxın 3 gün ərzində Abşeron yarımadasında zəif şərq küləklərinin üstünlüyü, bəzi saatlarda durğun hava şəraiti və gündüzlər isti temperatur diskomfortu meteohəssas insanlar üçün əlverişsizdir. Günorta saatlarında uzun müddət qızmar günəş altında olmaq məsləhət görülmür.



## Məktəbli forması tikən "Bakı Tikiş Evi" rayonda mağaza açır

**"Bakı Tikiş Evi"nin (BTE) Göyçayda mağazası açılır. Bu haqda modern.az-a BTE-nin satış şöbəsinin müdiri Etibar Əzimov məlumat verib. Şöbə müdiri bildirib ki, mağaza yerli Icra hakimiyyətinin təklifi əsasında açılır: "Təxminən 100 kvadratmetrlik ərazisi olan mağazadır. Yerli Icra hakimiyyəti bizdən xahiş etdi ki, mağaza açaq. Onlar istəyir ki, rayonun şagirdləri də bizim istehsal etdiyimiz məktəbli formalarından geyinsinlər. Biz də bunu nəzərə alaraq orada mağaza açmaq qərarına gəldik".**

E.Əzimov deyib ki, buna qədər bəzi regionlarda mağazalar fəaliyyətdədir:

"Şəkidə, Oğuzda, Qəbələdə, İsmayıllıda bizim istehsal etdiyimiz formalar satılır. Keyfiyyət yüksək olduğu üçün tələbat da artır".

## Ərdoğan xarici işlər nazirini təcili İrana göndərdi

**Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu avqustun 18-də birgünlük İrana səfərə gedib. "Report" xəbər verir ki, nazir Tehrandan Hindistana yola düşüb. Məlumata görə, M.Çavuşoğlu İrandakı görüşlərində Suriya problemi başda olmaqla regional məsələləri müzakirə edib.**

Xatırladaq ki, İranın "Fars" agentliyi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın gələn həftə Tehrana səfər edəcəyi haqda məlumat yaymışdı.

## SOCAR-ın Maltadakı layihəsi ilin sonuna kimi həyata keçiriləcək

**SOCAR-ın Maltada qaz elektrik stansiyası tikintisi layihəsi ilin sonunda başlanılacaq. Ehtimal olunur ki, layihənin birinci mərhələsi ilin sonunda başlayacaq.**

Mənbənin məlumatına görə, əvvəllər tikintiyə bu ilin yayında başlamaq planlaşdırılırdı. Amma Sinqapurda üzən barja tikintisində çətinlik yarandı.

Elektrik stansiyasının gücü 210 meqavatt olacaq.

Tikintini ElectroGas Malta konsorsiumu həyata keçirəcək. SOCAR-I konsorsiumda SOCAR Trading təmsil edir (20%). SOCARTrading stansiyaya maye qaz, üzən qurğu və avadanlıq tədarük edəcək.

Stansiyanın tikintisinin qiyməti 175 mln avrodur və Maltanın elektrik enerjisi ehtiyacının 50%-ni təmin edəcək.

❑ "Turan"

## Gömrükçülər 18 min siqaret və 142 litr araq müsadirə edib

**Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" gömrük postunda iri partiya siqaret və araq müsadirə edilib, deyə Gömrük Komitəsi bildirir.**

"Turan"ın məlumatına görə, Gürcüstandan Azərbaycana gələn mikroavtobusa gömrük baxışı zamanı aksiz markası ilə markalanmamış - 244 ədəd 0,5 litrlik, 20 ədəd 1 litrlik xarici markalı araqlar, 18 min ədəd isə xarici markalı siqaret aşkar edilib.Məlumatda deyilir ki, mallar mikroavtobusda sərnişin qismində əyləşən Azərbaycan vətəndaşına məxsus olub

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016



# “Lənkəranski”nin qətl müəmması - yeni şok faktlar və həbslər

## “Qanuni oğru” izdihamla son mənzilə yola salındı; 15 gün əvvəl onu türk polisindən qurtaran Sedat Pekər kimdir?; saxlanılanlar arasında Azərbaycanda otelləri olan Tahir Can da var

**İstanbulda qətlə yetirilən “qanuni oğru” Rövşən Canıyev (“Rövşən Lənkəranski”) avqustun 19-da doğulduğu Lənkəran şəhərində izdihamla son mənzilə yola salınıb. Qeyd edək ki, Bir gün qabaqdan - avqustun 18-dən başlanan matəm mərasimi sübhə qədər davam edib.**

“Yeni Müsavat”ın Lənkərana ezam olunmuş reportyor qrupunun verdiyi məlumata görə, dəfndə iştirak etmək üçün minlərlə şəhər sakini ilə yanaşı, respublikanın müxtəlif bölgələrindən də yüzlərlə adam, o cümlədən xaricdə yaşayan həmvətənlilərimiz də Lənkərana gəliblər.

**“Palmali” Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimov**un şəxsi təyyarəsi ilə avqustun 18-də gecə Lənkərana gətirilən cənazəni hava limanında böyük izdiham qarşılayıb. Daha sonra cənazənin olduğu avtomobil izdihamın müşayiəti ilə hərəkət edib. M.Mənsimovun da mərasimdə iştirak etmək üçün Lənkərana gəldiyi deyilir.

### “Kiçik bazar” da görünməmiş izdiham

Mərhumla vida mərasimi doğulduğu “Kiçik bazar” məhəlləsində yerləşən “Hüseyniyyə” məscidində keçirilib. Şəhərdə gecə saatlarından başlanan sıxlığa görə nəqliyyatın hərəkəti məhdudlaşıb, məscidə gedən yollar bağlanıb. Adamlar tanınmış həmyerlilərini “Allahu əkbər!”, “La ilahı illallah!”, “Ya Hüseyn!” və “Rövşən!” şüarları altında məscidə gətirib.

Sıxlıq yarandığı üçün məscidə giriş məhdudlaşdırılıb. Sonra hissə-hissə insanlar ibadət evinə buraxılıb. Qafqaz Müsəlmanlar İdarəsinin Lənkəran üzrə nümayəndəsi, axund Hacı Sədi elan edib ki, cənazə mərasimi avqustun 19-u səhər təqribən 10 radələrində qılınacaq. Ardınca mərhum “Kiçik bazar”da yerləşən məzarlıqda dəfn olunacaq.

Sübhə qədər “Lənkəranskini”nin nəşi olan məscidə axın olub. Səhər saatlarında isə cənazə namazı qılınıb. Sonra minlərlə insanın iştirakı ilə qəbiristanlığa yürüş olub. Bu izdihamlı yürüş də şüarlarla müşayiət olunub.

Artıq qabacaqdan axund Hacı Sədi kütləyə xitabən xahiş etmişdi ki, tabuta emosional şəkildə yaxınlaşmasınlar, mərhumun ruhunu incitməsinlər, hər hansı kənar şüar səslənməsin, Quran ayələri, duaları oxunsun, bir sözlə matəm yürüşü mərhumun adına layiq olsun.

“Lənkəranski”nin nəşi “Allahu əkbər!” şüarları altında əvvəlcə ata evinə gətirilib, burada bir neçə dəqiqə doğmaları ilə vida olub, sonra məzarlığa gətirilib.

“Rövşən Lənkəranski”nin cənazə mərasimində iştirak edənlər arasında kriminal avtoritetlər də iştirak edirdilər. Ancaq yerli camaat danışırdı ki, yaxın dostları dəfnə qatılmayıblar. Bunu cənazə mərasiminə gələn avtomobillərin nömrələrindən də ehtimal etmək olardı. Rövşənin kriminal aləmdəki dostları məzarı önündə onun qanının yerdə qalmayacağını bəyan ediblər.

Onu da deyək ki, dəfn mərasiminə üzərilərində kriminal aləmin elementləri olan və müxtəlif sözlər yazılmış gül çələngləri gətirilmişdi. Eyni zamanda, mərasimdə Lənkəran şəhər İcra Hakimiyyətinin nümayəndələri iştirak edirdilər. Mərasimdə “Lənkəranski”nin qardaşının qohumu, deputat Fəzail Ağamalı da iştirak edirdi. Ümumilikdə, dəfn mərasimi insidentsiz keçib və hər hansı xoşagəlməz hadisə qeydə alınmayıb.
















### “Lotu Quli”nin vəkilindən “gül çələngi” açıqlaması

Rövşən Lənkəranskinin ölümünü hazırda 8 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən “Lotu Quli” ləqəbli Nadir Səlifov da həyəcan və narahatlıqla qarşılayıb. Lotu Quli oğru dünyasının avtoritetinin ölüm xəbərini cəza çəkdiyi 8 saylı müəssisənin işçilərindən eşidib. Bu barədə məlumatı cebhe.info-ya Nadir Səlifovun vəkili Təranə Əliyeva verib. Vəkil deyib ki, “Rövşən Lənkəranski”nin ölümünə heç kim sevinmir: “Biz ötən gün Nadir Səlifovla o barədə söhbət etdik. O, ”Rövşən Lənkəranski"nin ölüm xəbərinə çox pis oldu. Onların arasında elə bir problem yox idi. Allah ona rəhmət eləsin! Bu xəbəri cəzaçəkmə müəssisəsinin işçilərindən öyrənib, təəssüf və təəccüblə qarşılayıb. Mənimlə söhbət zamanı da onun ölümünə pis olduğunu dedi və ona rəhmət dilədi". Vəkil əlavə edib ki, hər halda Lotu Quli dəfn mərasimini diqqətsiz buraxmayacaq: “Təbii ki, təcridxanada onun telefonu yoxdur. Amma hansısa vasitələrlə Nadir Səlifov məzara əklil göndərdəcək. Mən belə məsələlərə qarışmıram. Amma məncə onların müəyyən əlaqələri var idi”.

### İstanbul polisi: “Rövşən Lənkəranski”nin qətlinə görə 4 nəfər saxlanılıb

İstanbul polisinin Asayiş Şöbə Müdirliyi “Lənkəranski”nin qətlinə görə 4 nəfərin saxlanıldığını təsdiqləyib. Virtualaz.org xəbər verir ki, bu haqda “Milliyet” yazıb.

Polisdən bildiriblər ki, saxlanılanların 3-ü Azərbaycan, 1-i Türkiyə vətəndaşıdır. Azərbaycan vətəndaşlarının kimlikləri H.T., A.N, və Z.İ. göstərilir, Türkiyə vətəndaşı isə T.C. olaraq bildirilib. Polisdən bildirildiyinə görə hadisə ilə bağlı çoxyönümlü təhqiqat başladılıb və saxlanılanların ifadələri alınır. Onlara qarşı hansısa ittihamların irəli sürülüb-sürülmədiyi haqda məlumat yoxdur.

Qeyd edək ki, saxlanılanların “Rövşən Lənkəranski”ni vuran killer deyil, hadisədən əvvəl onunla birlikdə Beşiktaşdakı oteldə olan kriminal avtoritetlər olduğu haqda virtualaz.org ttp://virtualaz.org/ hələ ötən gün xəbər verib. Bunlar “Rövşən Lənkəranski”nin killerlər briqadasının üzvləri hesab edilən Hacı Talıbxanlı (“Beyləqanski”), “Zaur Sumqayıtski” və “Vahid Bakinski” olduğu bildirilir. Ehtimal edilir ki, İstanbul polisinin açıqlamasında da bu şəxslərdən söhbət gedir. Habelə Türkiyə mətbuatı yazıb ki, hadisə zamanı “Rövşən Lənəkəranski”nin getdiyi “Range Rover”də beynəlxalq nəqliyyat daşımaları biznesi ilə məşğul olan, Azərbaycanda otelləri olan Tahir Can adlı Türkiyə vətəndaşı da olub. O, saxlanılıb və ifadəsi alınır.

“Rövşən Lənkəranski”ni güllələyən killerlərin isə tapılması barədə hələlik məlumat yoxdur.

### Şok məlumat - 15 gün əvvəl türk polisi saxlayıbmış, Sedat Pekər qurtarıb...

“Yeni Müsavat”ın əldə etdiyi daha bir sensasion məlumata görə, hadisədən 15 gün əvvəl Türkiyə polisi “Rövşən Lənkəranski”ni saxlayıb. Amma “qanuni oğru” polisdə çox qalmayıb. Mənbəmiz deyib ki, “Lənkəranski”nin sərbəst buraxılması üçün Türkiyənin tanınmış iş adamı, xeyriyyəçi və “yeraltı dünyası” nın ən ünlü isimlərindən olan Sedat Pekər işə qarışıb. Milliyyətçi camedə də yaxşı tanınan S. Pekər “Lənkəranski”nin azad olunmasına nail olub. S. Pekəri Türkiyə mediası “yeraltı dünyanın sahiblərindən biri” və “mafiya babası” kimi təqdim edir. Sedat Pekər 2007-ci ildə İstanbul 9-cu Ağır Cəza Məhkəməsinin hökmü ilə mafiya çetesi qurmaq kimi ittihamlarda suçlanaraq 14 il həbs cəzası alıb. Sonradan onun adı “Ergenekon” məhkəməsində ittihamlarda da yer alıb. Ona da bu işlə bağlı 1 il 3 ay həbs cəzası verilmişdi. 2013-cü ildə cəzasının bitməsinə 4 il qalmış isə azadlığa buraxılıb. Onun Azərbaycana da xüsusi sevgisi olduğu məlumdur. “Lənkəranski”nin İstanbul polisinin niyə saxladığı məlum deyil. Amma S.Pekərin “qanuni oğru”nun azadlığa buraxılması üçün xüsusi rolu olduğu, bir neçə gün sonra isə kürdlər tərəfindən qətlə yetirilməsi barədə iddialar maraq doğurur.

❑ **“Yeni Müsavat”ın Reportyor Qrupu (Lənkəran-Bakı)**

# Ermənistanda siyasi intriqalar qızışır - baş nazirin istefası gündəmə gələ bilər



Ovik Abramyan

**Ermənistanın baş naziri Ovik Abramyan avqustda planlaşdırdığı məzuniyyətini ləğv edib. Bu barədə Ermənistanın "Qraparak" qəzet yazıb. Nəşrin iddiasına görə, Abramyanın hakim Respublika Partiyasında mövqeyi xeyli zəifləyib. Bu səbəbdən o, sentyabrda keçiriləcək bələdiyyə seçkiləri ərəfəsində partiyada nəzarəti gücləndirmək istəyir.**

Ermənistanın müxalif Lragir.am saytı isə hazırda ölkənin bir sıra iri ranqlı məmurların dəyişdirilməsinin gündəmdə olduğunu yazır. Saytın xəbərinə görə, onların başında Ovik Abramyan gəlir. Ermənistan mətbuatı Abramyanın mövqelərinin zəifləməsini ölkənin siyasi, iqtisadi və sosial həyatında baş verən kardinal dəyişikliklərlə əlaqələndirir.

"Ermənistanın iqtisadi göstəriciləri aşağıya düşüb, xarici borclar bir neçə dəfə artıb, köhnə kəndçi-oliqarxik qanunlar isə artıq çoxdan işləmir", - deyə analitik Naira Ayrumyan yazır. Erməni KİV-ləri Ovik Abramyanın yerinə gələcək ən real namizədin Təhlükəsizlik Şurasının katibi Armen Gevorkyan olduğunu iddia edir.

Bu aralarda Ovik Abramyan da boş dayanmır. Belə ki, 1in.am saytının yazdığına görə, baş nazir hökumətin avqustun 18-də keçirilən iclasında hökumətin Avropa İnsan Haqları Məhkəməsinin qərarları əsasında Ermənistan vətəndaşlarına kompensasiya olaraq ödədiyi pulları hesablamağı tapşırıb. Abramyan bəyan edib ki, kimsə dövlət büdcəsindən təzminatların verilməsi bahasına başa gələn qeyri-qanuni qərarlara görə cavab verməlidir.

"AİHM qərarlarına görə ödənilən bu təzminatların məbləği bir neçə yüz min dollarlarla ölçülür. Xüsusi diktə altında qəbul edilən və icra etdirilən qeyri-qanuni məhkəmə qərarlarına görə ödənilən təzminatlar vergi ödəyicilərinin cibindən gedir. Belə çıxır ki, Ovik Abramyan hakimiyyətin qeyri-qanuni əməllərinə görə məsuliyyətin müəyyən edilməsinə çalışır", - deyə 1.in.am saytının yazarı Ovannes Mandakuni yazır.

Yerli mətbuat baş nazirin bu mənada bir sıra iqtidardaxili qrupu hədəfə götürdüyünü iddia edib. Məsələ bundadır ki, məhkəmə-hüquq sistemi uzun müddət hökumət aparatının nazir-rəhbəri David Arutunyanın əlində olub. Erməni KİV-ləri isə Ovik Abramyanla David Arutunyan arasında münasibətlərin olduqca pis olduğunu yazır. Abramyanın bu səbəbdən özünə sadiq olan Arpine Ovannisyanı ədliyyə naziri vəzifəsinə gətirdiyi qeyd olunur. Təsadüfi deyil ki, ədliyyə naziri Ovannisyan dünənki iclasda hökumətin antikorrupsiya şurasının fəaliyyəti çərçivəsində dövlət məmurlarının qeyri-qanuni varlanması əleyhinə yeni qanunvericilik paketini hazırlayacağını bildirib.

Məlum olduğu kimi, antikorrupsiya komitəsi bir ildən azdır ki, fəaliyyət göstərir və ona rəhbərlik edən də məhz baş nazir Ovik Abramyandır. Mətbuatın yazdığına görə, Abramyanın AİHM qərarları ilə bağlı göstərişi həm də sistemdaxili daha dərin münaqişələrdən xəbər verir. İş ondadır ki, baş nazirin hökumətin iclasında diqqət çəkdiyi qərarların əksəriyyəti Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın zamanında qəbul edilib. Ola bilər ki, Abramyan bununla özünü prezident Serj Sərksiyanın yanında şirin eləmək istəyir. Ermənistan KİV-ləri isə Ermənistanda hökumətin siyasi iflas həddinə gəldiyini yazır. Onların fikrincə, 2014-cü ildə Ovik Abramyan tərəfindən qurulan hökumət əvvəlki baş nazir Tiqran Sərkisyanın kabinetinin gününə düşüb.

"Bütün bu illər ərzində Ermənistanın iqtisadi problemləri, hökumətin de-fakto fəaliyyət göstərməməsi nəticəsində ortaya çıxıb. Tiqran Sərkisyan hökuməti Ermənistanın kriminal-oliqarxik sisteminin tələblərinə uyğun gəlmədiyi üçün istefa verməyə məcbur oldu. Onun yerinə gələn Ovik Abramyan isə ilk aylardan kriminal oliqarxiyanı toparlayaraq, onun birləşməsinə çalışdı. Hökumətin bütün fəaliyyəti məhz bu oliqarxiyanın problemlərinin həllinə yönəldi", - deyə Ovannes Mandakuninin məqaləsində qeyd edilir.

"Bu səbəbdən Abramyan bir ara hətta Sərksiyanın yerinə gələcək ən real namizəd olaraq göstərilirdi... Lakin Ermənistanda baş verən son hadisələr (buraya aprel döyüşləri, konstitusiya dəyişiklikləri, "Sasna tsrer" qiyamı və s. aiddir) hökumətin yeni siyasi gerçəkliklərdən uzaq olduğunu göstərib" - ardınca yazıda bildirilir.

**Erməni politoloqlar yeni problemlər qarşısında indiki hökumətin fəaliyyətinin ümumiyyətlə, görünmədiyini də yazır. Bu səbəbdən iddialara görə, tək qaldığını hiss edən Abramyan Robert Köçəryandan mədət umub. Erməni ekspertlərin rəyincə, baş nazirin son hökumət iclasında Robert Köçəryana "ilişməsi"nin arxasında da məhz sonuncunun baş nazirə gözlədiyi dəstəyi verməməsi durur.**

❑ **Vaqif Hüseyn, musavat.com**

# Sabiq batalyon komandiri Zakir Həsənova müraciət etdi

## Etibar Əmiraslanov: "Cənab nazir, məni ən sadiq və fədakar əsgəriniz bilin"

**Tovuz özünümüdafiə batalyonunun komandiri olmuş Etibar Əmiraslanov Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənova yazılı müraciət edib. Sabiq komandir müraciətinin bir nüsxəsini "Yeni Müsavat" redaksiyasına yollayıb.**



**E.Əmiraslanov müraciətin girişində yazır:** "Cənab nazir. Mən 1961-ci ildə Tovuz rayonunun Əlibəyli kəndində anadan olmuşam, orta təhsilliyəm, üç övlad atasıyam. Əsgərlik xidmətimi 1979-80-ci illərdə Əfqanıstanda etmişəm. Qulluq etdiyim hərbi hissə DÇB olub. Azərbaycanımızı layiqincə təmsil etmişəm.

Ermənilər Qarabağ iddiasına qalxanda, mən bilirdim ki, müharibə nə deməkdir. Yaşadığım Əlibəyli kəndi Ermənistanla sərhəddir. Ermənilərin 6 kəndi ilə Əlibəyli üz-üzədir. Demək olar ki, 80 faiz yüksəkliklər erməni tərəfdədir. Müharibə yeni başlayan vaxtlarda öz təşəbbüsüm və vəsaitim hesabına Əlibəylidə müəyyən yerlərdə səngərlər qazdırdım. Elə səngərlər var idi ki, kənd sakinlərinin həyətyanı sahəsinə düşürdü. Bütün narazılıqlara baxmayaraq istədiyim kimi edirdim. Ancaq məndən milisə şikayət edənlər də oldu. Məni şöbəyə çağırdılar. Tovuzun o vaxtkı milis rəisi İsa Bağırov səngəri nə üçün qazdığımla maraqlandı. Sonra mənimlə bərabər Əlibəyliyə gəldi, səngərləri gördən sonra Əlibəyli camaatını mənə dəstək olmaq göstərişi verdi".

**Sabiq komandir yazısında qeyd edir ki, Tovuzun ermənilərlə 96 km sərhədi var:** "Demək olar ki, bütün sərhəd boyu qurğular quruldu, səngərlər qazıldı. Tovuzun o vaxtkı rəhbər işçiləri bütün texnikaları demək olar ki mənim sərəncamıma vermişdi. Qarabağda artıq ermənilər baş qaldırmışdı. Mən başladım könüllü dəstəni yığmağa. Tez bir zamanda 200-dən çox könüllü yığıldı. Silah sarıdan çox zəif idik. Bakıda, Sumqayıtda, Rusiyada və s. kənar yerlərdə yaşayan tovuzluların bizə hədsiz köməkləri oldu. Ov tüfəngindən başqa uzaq atan silahımız yox idi. Rayon polisləri də gecə-gündüz bizimləydilər. 1990-cı ildə sərhəd boyu həm Ermənistan tərəfə, həm biz tərəfə rusların sülh məramlı əsgərləri yerləşdirildi".

**Etibar Əmiraslanov yazır ki, o vaxt ermənilər hər axşam rusların əli ilə Əlibəylini gülləboran edirdilər:** "Biz tərəfdə olan ruslar havaya güllə atmaqla kifayətlənirdilər. Çox götür-qoydan sonra qərara gəldik ki, rusları tərksilah edək. Tovuz rayonunda Sovet ordusunun iki rotası yerləşdirilmişdi: biri Tovuzun Ağdam kəndində, digəri Əlibəylidə idi. Qərara gəldik ki, öncə Ağdam kəndində olan rotaya hücum edək. Bir həftə aparılan kəşfiyyat öz bəhrəsini verdi. Səhərə yaxın heç bir güllə atmadan, canlı itki vermədən bütün rotanı ələ keçirdik. Öncə rusların rabitə sistemini zərərləşdirdik. Əlibəyli ilə heç bir əlaqə yarada bilmədilər. Biz tanklı-toplu Əlibəyliyə girəndə, Sovet ordusunun kənddə olan əsgərləri şoka düşmüşdülər. Bir həftə müddətinə pul qarşılığında silahları bizə təhvil verdilər. Demək olar ki, Tovuzun müdafiəsi təmin edilmişdi".



**Sabiq komandir deyir ki, bundan sonra Qazax rayonunun Musaköy kəndində Sovet ordusunun bir batalyonu qorxudan Qazağı tərk edib Gəncə istiqamətində yola düzəldi:** "Qazaxda olan könüllülər nə qədər çalışsalar da ruslardan silah ala bilməmişdi. Biz ruslara Tovuzun ərazisini tərk etməyə imkan vermədik. Batalyonun nə qədər ağır, yüngül texnikası, silahı vardısa, müsadirə etdik və sərhəd boyu kəndlərə payladıq. Artıq demək olardı ki, ermənilərin kəndləri tam boşalmışdı".

**E.Əmiraslanov yazır ki, o vaxtlar Azərbaycanda milli ordu formalaşmamışdı. Milli ordu yaradıldıqdan sonra döyüşçü yoldaşları ilə birlikdə ordu sıralarına daxil olub:** "Mənə çox təkliflər olsa da, batalyon komandiri olmaqla razılaşdım. Komandiri olduğum batalyon demək olar ki, məğlubedilməz idi. İlk ciddi uğurumuz dəniz səviyyəsindən 1500 metr olan Çənlibel yüksəkliyini itkisiz götürməklə başladı. Çənlibel yüksəkliyi qərb zonasının açarıdır".

**E.Əmiraslanov bundan sonra bəzi məqamlara toxunur. O, nazir Zakir Həsənova müraciətində bildirir ki, heç bir siyasi proseslərə qarışmayıb, sadəcə döyüşçü kimi vətən torpağını qorumaqla məşğul olub:**

"Hərbi xidmətdə olduğum müddətdə 4 dəfə ağır, 7 dəfə yüngül yaralanmışam. Bütün bunlara baxmayaraq, silahı əldən yerə qoymamışam. Mərhum prezidentimiz Heydər Əliyev məni Azərbaycan bayrağı ordeni ilə təltif etmişdi. Ateşkəslə əlaqədar 1995-ci ilin noyabrında özüm könüllü olaraq ordudan uzaqlaşmışam

Cənab nazir. Mənim bir amalım olub, torpağımıza düşmən ayağı dəyməsin. Bu gün mən ona nail olmuşam. Fəxr edirəm ki, düşmən Tovuz rayonundan bir qarış olsun belə torpaq ala bilməyib. Bu işdə az-çox mənim də əməyim var. Lakin təəssüf ki, müharibə veteranı vəsiqəm yoxdu. Müharibə iştirak etçəyən onlarla şəxs tanıyıram ki, saxta vəsiqə düzəltdirib. Saxta yollarla təqaüd alır, maşın, ev verilir belələrinə. Bu gün mənə nə qədər ögey münasibət olsa da, dəyişməmişəm, vətənə, torpağa olan sevgi daxilimdədi. Allah məni döyüşməyə yaradıb. Mənim keçdiyim döyüş yolu hərbi məktəblərdən yox, ölüm-dirim döyüşlərindən keçib. Müharibənin özünün yazılmamış qanunları var. Hər akademiya, universitet qurtaranın bu qanunlardan xəbəri yoxdur. Həmin yazılmamış qanunlar idi ki, ov tüfəngləri ilə rus ordusunu tərksilah edirdik. 25 il öncə Əlibəylidə, Ağdam kəndində düzəltdiyimiz istehkamlar, qurğular, səngərlər, yollar... bu gün ordumuz tərəfindən istifadə olunur. Bunlar məni çox sevindirir. Bu vətən və millət qarşısında az da olsa xidmətim varsa, nə gözəl."

**E.Əmiraslanov müdafiə nazirinə müraciətində daha sonra yazır:** "Cənab nazir, əgər Tovuza yolunuz düşərsə, xahiş edirəm, Çənlibel yüksəkliyinə baş çəkin. İnanıram ki, sizin kimi peşəkar hərbçi o yüksəkliyə baxarkən içinizdə bizlərə təşəkkür edəcəksiniz. Deyəcəksiniz ki, heç bir hərbi biliyi olmayan bu insan bu ağır beton piltələri nəylə qaldırıb".

**Sabiq komandir müraciətini bu sözlərlə bitirir:** "Cənab nazir! Mən bu gün də döyüşməyə hazıram. Əlimdə silah dövlətimin ərazi bütövlüyü uğrunda istənilən əməliyyatda iştirak etmək gücüm var. Məni - Əmiraslanov Etibarı Əmiraslan oğlunu müdafiə naziri olaraq özünüzün ən sadiq əsgərlərinizdən biri hesab edin və istənilən hərbi əmrinizə, tapşırığınıza hazıram. Vətən sağ olsun..."

❑ **Çapa hazırladı: Aydın Aslan**

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016



# Ankara-Tehran-Moskva

# Qərbə qarşı koalisiya, yoxsa...

## Elxan Şahinoğlu: “Rəsmi Bakı Rusiya, Türkiyə və İranla yaxınlaşma siyasətinə üstünlük verərkən Qərbdən uzaqlaşmamalıdır”

**Son günlər Ankara-Tehran-Moskva formatında Suriya böhranının həlli istiqamətində fəal əməkdaşlığa start verilib. Ankara və Moskva arasındakı “buzların” əriməsindən sonraya təsadüf edən bu hərəkətlilik çox ciddi yozumlara rəvac verib. Bəzi iddialara görə, bu, Qərbə qarşı koalisiyadır. Azərbaycanın da bu koalisiyada yer ala biləcəyindən danışılır.**

Bundan əvvəl Rusiya, İran, Azərbaycan liderləri Bakıda görüşdülər, isti mesajlar verdilər. Ərdoğan Putinlə görüşdən sonra isə Rusiya, Türkiyə, Azərbaycan formatından danışmışdı. Bunun ardınca İran da mərkəzdə yer aldı. Belə bir formatın yaradılması, həmçinin Azərbaycanın bu formata qoşulması və ya qoşulmaması nə vəd edir?

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** bildirdi ki, Türkiyə prezidentinin Peterburqdan sonra məhz Tehrana səfər edəcəyini daha öncə proqnozlaşdırıb: “Çünki Ərdoğan rusiyalı həmkarı Putinlə görüşdə belə bir fikir işlətmişdi ki, Ankara Suriya məsələsində Moskva ilə dialoqa hazırdır, hətta bu prosesə İranın da qoşulmasını istisna etmir. Bu, o demək idi ki, Ərdoğan əvvəlki sərt ritorikasından əl çəkərək Rusiya və İranla yaxınlaşmağa hazırdır və Tehranla da dialoqu genişləndirməyə ehtiyac duyur. Ərdoğanın başqa alternativi qalmayıb və indiki şərtlər altında onun Rusiya və İran yerinə Qərb ölkələrindən birinə rəsmi səfər reallaşdırması da problematikdir. Əgər Ankaranın ABŞ və Avropa Birliyi ilə münasibətlərdə obyektiv soyuqluq yaranıbsa, Türkiyə hakimiyyəti qonşuları ilə münasibətləri yeni səhifədən formalaşdırmaq məcburiyyətindədir. Çünki həm uzaq, həm də yaxın qonşularla eyni zamanda gərgin münasibətlərdə qalmaq olmaz”.

Politoloq Türkiyə-Rusiya-İran koalisiyasına Azərbaycanın da qoşulmasını mümkün sayır: “Bunu elə Ərdoğan da Putinə təklif edib ki, bölgədə yeni Türkiyə-Rusiya-Azərbaycan dialoq formatı yaradılsın. Ümumiyyətlə, Azərbaycan, Türkiyə, Rusiya və İranın yer aldığı bütün üçtərəfli formatlarda iştirak edir. Bunlardan Türkiyə-Azərbaycan-Türkmənistan, Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran, Rusiya-Azərbaycan-İran formatlarının adlarını çəkmək olar. Ona görə qonşulardan formalaşan istənilən format Azərbaycan üçün məqbuldur. Azərbaycanın bu formatlarda iştirakının 3 mühüm marağı var: birinci marağı ondan ibarətdir ki, bu formatlar Azərbaycanın milli və təhlükəsizlik maraqlarına xidmət edir, qarşılıqlı əməkdaşlıq genişlənir. İkinci marağı odur ki, baş iştirakçısı olduğumuz regional enerji və nəqliyyat layihələrinin icrasını sürətləndirir. Üçüncü marağı isə odur ki, bu formatlar Azərbaycanın torpaq bütünlüyünü təmin etməli və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirməlidir. Hələ ki, üçtərəfli formatlar birinci iki marağımızın təminində müsbət rol oynayır. Təəssüf ki, Rusiya, İran və Türkiyənin yer aldığı üçtərəfli formatlar hələ ki, Qarabağ münaqişəsinin həllini sürətləndirmir”.

### Arzu Nağıyev: “Həm Qərbin, həm də regionun maraqları nəzərə alınmalıdır”

**Ancaq E.Şahinoğlu hesab edir ki, bu, zaman məsələsidir**: “Belə fərziyyə var ki, Azərbaycan Türkiyə, Rusiya və İranla o qədər iç-içə olmalıdır ki, qonşu dövlətlərin özləri anlasınlar ki, Qarabağ münaqişəsini həll etmədən regional əməkdaşlığın inkişafına və Ermənistanın da bu prosesə qatılmasını təmin etmək mümkün olmayacaq. Buna baxmayaraq, rəsmi Bakı Rusiya, Türkiyə və İranla yaxınlaşma siyasətinə üstünlük verərkən Qərbdən uzaqlaşmamalıdır. Ancaq təzyiqin olacağı şəksizdir. Çünki Rusiya, İran və Türkiyənin hər birinin ABŞ və Avropa Birliyi ilə münasibətlərində ciddi problemləri var. Onların problemləri avtomatik bizim problemlər deyil. Ona görə də rəsmi Bakı elan etdiyi balaslaşdırılmış xarici siyasətə sadiq qalmalı, Moskva, Tehran və ya Ankara istəyir deyə, Vaşinqton və Brüssellə münasibətləri gərginləşdirməməlidir. Bir misal deyim, ABŞ Azərbaycan qazını Avropaya çatdıracaq Transadriatik boru xətti layihəsini dəstəkləyir, lobbiçilik edir. Bu, birbaşa Azərbaycanın maraqlarına xidmət edir. Ona görə də tək elə bu amilə görə biz Vaşinqtonla münasibətlərin süni surətdə gərginləşməsinə getməməliyik”.

**Politoloq Arzu Nağıyev** isə hesab edir ki, bu formatda olan koalisiya Suriya böhranını tam həll edə bilməz: “Çünki burada Ankaranın ,Tehranın və Moskvanın özəl maraqları üstünlük təşkil edə bilər. Təbii ki, əsas problemlərdən biri də Qərbin, daha doğrusu ABŞ-ın maraqlarıdır. Yəni bu gün bu koalisiya Suriya məsələsini həll etmək üçün mütləq atılan addımları ABŞ -la və ya NATO ilə razılaşdırmalıdır. Suriyada vuruşan qurumların bəziləri İran tərəfindən dəstəklənir, bəziləri Türkiyə və təbii ki, ABŞ-ın da dəstək verdiyi digər qurumlar var”.

**A.Nağıyev bir mühüm məqamı da xatırlatdı:** “Məlumdur ki, İsrail də bu oyunda maraqlı bir tərəfdir. Bu gün ”mənim düşmənim dostumun da düşmənidir “ prinsiplərinə baxmayaraq, Suriyada dəqiq və düşünülmüş plan üzrə hərəkət edilməlidir. Əks halda, Yaxın Şərqdə bundan da böyük fəlakətlər baş verə bilər”. Azərbaycana gəldikdə, politoloq qeyd etdi ki, bizim bir saylı və prioritet problemimiz bəllidir: “Təbii ki, Ankara-Tehran-Moskva formatı Suriyasız da Qarabağa məsələsinin həllində müsbət rol oynaya bilər, bunun üçün Azərbaycanın Suriyada hərbi əməliyyata qoşulmasında lüzum yoxdur. Bir sözlə, Azərbaycan öz balanslı siyasətini davam etdirməli və bu formatdan ilk növbədə Qarabağ münaqişəsinin həlli üçün istifadə etməlidir. Çünki gec-tez bu format da öz özəl maraqlarını ortaya qoyacaq. Buna görə də həm Qərbin, həm də regionun maraqları nəzərə alınmalıdır”.

❑ E.PAŞASOY

# Türkiyə və ABŞ arasında nüvə başlığı müəmması



## Ankaranın Qərbdən qopacağı barədə iddialar ciddi deyil,çünki...

**Avropa mətbuatı ABŞ-ın Türkiyənin “İncirlik” hərbi hava bazasında yerləşdirilmiş nüvə başlıqlarını Rumıniyaya köçürəcəyi haqda xəbər yayıb. İddialara görə, artıq proses başlayıb və 20-yə yaxın nüvə başlığı Rumıniyanın Deveselu hərbi hava bazasına köçürülür. Ancaq proses ləng gedir, həm texniki, həm də siyasi problemlər yaranır.**

Qeyd edək ki, Rumıniyada yerləşən Deveselu hərbi bazası bu ilin mayında gündəmə gəlib. ABŞ məhz bu bazada Rusiyaya qarşı raketdən müdafiə “qalxanı” inşa edib. Avropanı Rusiya hücumundan qorumalı olan 800 milyon dollarlıq layihə Rusiyanın ciddi etirazlarına səbəb olub. Ancaq hələlik Rumıniya bu iddiaları təsdiq etmir.

Bəlli olduğu kimi, digər NATO ölkələri kimi “soyuq müharibə” zamanı Türkiyədə də nüvə başlıqları yerləşdirilib. Bir neçə il əvvəl “Stimson Center” Araşdırma Mərkəzinin hazırladığı hesabatda “soyuq müharibə” illərində Türkiyə ərazisində, Suriya sərhədlərinə 100 kilometr məsafədə yerləşən İncirlik hərbi hava bazasında 50-dək nüvə başlığının yerləşdirildiyini yazıb. “Soyuq müharibə” illərində Türkiyə NATO-nun cənub-şərq sərhədi olub və SSRİ-nin müttəfiqi olan Suriya ilə faktiki, “cəbhə” xəttini təşkil edib. Sonrakı illərdə dəfələrlə nüvə başlıqları mövzusu gündəmə gəlsə də, İncirlikdə ABŞ ordusunun nəzarətində olan nüvə başlıqlarının köçürülməsi məsələsi gündəmə gəlməyib.

Ancaq 15 iyul qiyamından sonra Türkiyədə həm hökumət səviyyəsində, həm də xalq arasında qiyamda ABŞ rəsmilərinin əlinin olması, İncirlik bazasının qiyamda iştirakı ilə bağlı iddialar ortaya atılıb. Hətta qiyamdan dərhal sonra Ankara İncirlik bazasına verilən elektrik enerjisini kəsib. Ancaq sonradan elektrik enerjisi bərpa olunub və ictimaiyyət nümayəndələrinin bazaya yürüşü baş verib. Bazada çalışan bəzi türk zabitlər isə qiyamda iştirak ittihamı ilə həbs olunub. Lakin bütün bunlara baxmayaraq, ABŞ hökuməti İncirlikdəki silahları geri çəkməyi düşünmədiklərini bildirib. ABŞ hava qüvvələri naziri Debora Li Ceyms deyib ki, İncirlikdə yerləşən B 61 nüvə bombardman silahlarının taleyi ilə bağlı hər hansı narahatlığa əsas yoxdur. O, bununla bağlı iki ölkə münasibətlərində kəskin qərarlar vermək üçün hər hansı bir səbəbin olmadığını qeyd edib.

Yeri gəlmişkən, bir qədər əvvəl ABŞ-da yerləşən bəzi “beyin mərkəzləri” nüvə başlıqlarının Türkiyədən çıxarılması təklifini irəli sürüb. Buna əsas səbəb kimi, qiyam zamanı bir çox generalların ölkəsinə xəyanət etməsi göstərilib. İddia müəlliflərinə görə, ölkəsinə xəyanət edən generallar bu nüvə silahlarını terrorçulara verə bilərlər.

Məsələ burasındadır ki, Türkiyənin Qərbdən uzaqlaşıb Rusiyaya yaxınlaşacağı iddiaları 15 iyul qiyamından sonra səslənməyə başlayıb. Bunun əsas səbəbi isə qiyam zamanı və sonrakı olaylarda Qərbin, xüsusən də ABŞ və AB rəhbərliyinin faktiki olaraq Türkiyə hakimiyyətinə açıq dəstək verməməsi oldu. Əksinə, Ankaraya yönəlik tənqidlər daha da artdı, Ərdoğanın Almaniyada keçirilən mitinqə canlı bağlantı ilə qatılmasına əngəl yaradıldı. Buna paralel olaraq Türkiyədə bir sıra rəsmi şəxslər, o cümlədən hakimiyyətə yaxın media quruluşları qiyama görə ABŞ-ı ittiham etməyə başladı. Üstəlik, avqustun əvvəlində Ərdoğanın Rusiyaya gedərək Putinlə görüşməsi Türkiyənin Qərbdən ayrılaraq Rusiya ilə yaxınlaşacağı iddialarını gücləndirdi.

Ancaq ekspertlər hesab edir ki, bu gedişlər daha çox siyasi bazarlıq və təzyiq vasitəsi kimi qəbul olunur. Hazırda Türkiyə və ABŞ arasında ciddi siyasi böhrandan danışmaq üçün çox tezdir. Məsələn, qiyamdan bir neçə həftə sonra Ankaraya səfər edən ABŞ ordusunun Baş Qərargah rəisi Türkiyə rəsmiləri ilə görüşdü və sonradan bildirdi ki, iki ölkə münasibətlərində hər hansı ciddi problem yoxdur, Ankarada onları qiyama dəstək verməkdə ittiham etməyiblər.

Eyni zamanda son olaraq Vaşinqton rəsmilərinin nüvə silahları ilə bağlı açıqlamaları göstərir ki, Türkiyənin NATO-dan ayrılması iddiaları o qədər də ciddi deyil. Çünki Türkiyəni NATO ilə 60 ildən çox yaşı olan müttəfiqlik münasibətləri bağlayır. İki ölkə dövlət qurumları arasında çox dərin əməkdaşlıq mövcuddur. Bu baxımdan siyasi hakimiyyətlər arasında fikir ayrılığı və ya soyuqluq dərin müttəfiqlik və əməkdaşlığı əlaqələrini qoparmaq üçün kifayət edə bilməz.

**Görünən odur ki, indi həm Qərb (ABŞ və AB) və həm də Ankara müəyyən mənada qarşılıqlı olaraq bir-birinə qarşı siyasi təzyiq göstərməyə çalışırlar. Ankara Vaşinqtonun Yaxın Şərqdəki siyasətindən, Suriyada kürdlərə dəstəyindən və eləcə də siyasi hakimiyyətə münasibətindən narazıdır. Bunu gizlətmir və hər fürsətdə diqqətə çatdırmağa çalışır. Qərb paytaxtları da Türkiyədə artan avtoritarizm meylləri, eləcə də Türkiyənin çoxgedişli manevrlərindən narazıdır, Türkiyənin daha sadiq və etibarlı müttəfiq olaraq qalmasını istəyirlər. Bunun üçün də Ankaraya ara-sıra təzyiq edilir. Göründüyü kimi, hər iki tərəfin də bir-birindən gözləntisi və necə deyərlər narazılığı var. Ancaq bu narazılıq əlaqələri qoparmaq üçün əsas verəcək qədər böyük deyil.**

❑ Kənan RÖVŞƏNOĞLU

# Rəsmilərin "ölkədə təxribatlar ola bilər" bəyanatına ilginc reaksiyalar

**Mərkəzi Seçki Komissiyasında avqustun 18-də referendumla bağlı keçirilən seminarda Prezident Administrasiyası rəhbərinin müavini Zeynal Nağdəliyev, daxili işlər nazirinin müavini Oruc Zalov, baş prokurorun birinci müavini Rüstəm Usubov çıxışlarında "maraqlı tərəflərin təxribatları, niyyətləri ola bilər, biz bunların qarşısını almalıyıq", "razılaşdırılmamış aksiyalara, təxribatlara imkan verilməyəcək" kimi açıqlamaları veriblər.**

Maraqlıdır, bu, hakimiyyətin referendum dövründə hansısa daxildən və ya xaricdən idarə olunan hadisələr olacağı barədə informasiyasının olmasından xəbər verir, yoxsa sadəcə xəbərdarlıq niyyəti güdür?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** hesab edir ki, hakimiyyət yetkililərinin xəbərdarlıq və narahatlıq xarakterli həmin açıqlamaları Azərbaycana qonşu regionlarda, xüsusən də Türkiyədəki hadisələrdən keçirilən narahatlıqdan irəli gəlir: "Xatırlayırsınızsa, YAP-ın ikinci şəxsi Əli Əhmədov referendumu keçirilməsini də məhz qonşu regionlarda baş verən hadisələrlə əlaqələndirmişdi. Hakimiyyət baş verən hadisələrdən ciddi narahatdır. Hədə-qorxu gəlməyə də heç ehtiyac yoxdur. Azərbaycan cəmiyyəti onsuz da referendumun keçirilməsinə ciddi reaksiya vermir. Azərbaycanda güclü müxalifət qüvvəsi də yoxdur ki, proseslərə ciddi təsir etsin. Ona görə də hakimiyyət müxalifətdən çəkinmir. Hakimiyyət təmsilçilərinin ehtiyatlandığı başqa şeydir. Əsas narahatlıq hansısa addımların da məhz içəridən ola biləcəyindən ehtiyat edirlər. Real gücün hərəkət edəcəyi halda real gücdən və müxalifətin, cəmiyyətin məhz bu zaman o güc ətrafında toparlana biləcəyindən narahatdırlar. Xəbərdarlıqlar buna görədir".



**Sülhəddin Əkbər:**
"Hakimiyyət müxalifətdən çəkinmir, ehtiyatlandığı..."



**İqbal Ağazadə:**
"Hüquq-mühafizə orqanları bunu araşdırmalıdırlar"



**İkram İsrafil:**
"Əgər hakimiyyət rəsmiləri əndişə ifadə edirlərsə, deməli..."

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, zahirdə görünən odur ki, ölkədə heç bir müxalifət təşkilatlarının hər hansı birindən destruktiv fəaliyyət gözlənilimir. Hakimiyyət təmsilçilərinin hər hansı bir informasiyası varsa, xəbərdarlıq etmək lazım deyil, hüquq-mühafizə orqanları bunu araşdırmalıdırlar və tədbir görməlidirlər. Mən düşünmürəm ki, Azərbaycanda siyasi partiyalar istər daxildən, istərsə də xaricdən əlaqələri olan və ya olmayan hər hansı destruktiv fəaliyyətlə məşğul olmaq üçün hərəkətə keçər. Ümumiyyətlə, siyasi partiyaların zorakılıqla, qarşıdurma ilə siyasi fəaliyyət göstərmək, bu yolla iqtidara gəlmək kimi niyyəti olmayıb və hesab etmirəm ki, bundan sonra olacaq. Biz demokratik cəmiyyət quruculuğunu azad demokratik seçkilər keçirilməsində görürük. Ona görə də hesab etmirəm ki, referendum dövründə hansısa siyasi qüvvələr təxribatlara yol verə bilər. Hesab edirəm ki, hakimiyyət təmsilçilərinin, güc strukturu nümayəndələrinin MSK-dakı məlum açıqlamaları daha çox qorxutmaq məqsədi daşıyır. Xalqın etirazı olacaqsa, heç bir proflaktika, heç bir xəbərdarlıq heç nəyi dəyişmir. Bu gün elə bir vəziyyət yoxdur ki, insanlar küçələrə tökülsün. Amma belə bir vəziyyət olacaqsa, onun da xəbərdarlıqla qarşısını almaq olmur".

**Müsavat Partiyasının Divan üzvü İkram İsrafil** isə bildirdi ki, icra hakimiyyəti və güc strukturlarının seçki prosesi ilə siyasi mövqe nümayiş etdirməsi düzgün deyil: "Hansısa xarici və ya daxili təxribatlar olacağı barədə məlumatları varsa, bunu vəzifələrinin görəvi kimi rəhbərlik elədikləri qurumlarda müzakirə etməli və lazımi tədbirlər həyata keçirməlidirlər. Düşünürəm ki, MSK-nın tədbirində belə çıxışları ictimaiyyətdə referendum qabağı xof yaratmaq, referenduma qarşı olan kəsim üçün bir mesaj kimi qəbul edirik. Axı niyə bu qədər narahatçılıq keçirirlər, anlamaq çətindir. Konstitusiyada, qanunlarda təsbit olunubsa ki, referenduma qarşı olanlar da təbliğat qrupu yaradıb, qanuna uyğun təbliğat apara bilərlər, bəs nədən Müsavatın "Respublika" təşəbbüs qrupunun imza toplayanlarına, imza verən insanlara qarşı qanunsuz hərəkətlərə yol verilir, imza vərəqələrini qaçırdırlar. Bu qanunsuzluqlar barədə Müsavat Partiyası məlumat verir, mətbuat yazır, lakin maraqlanan yoxdur".

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, iqtidar nümayəndələrinin narahatlığı başadüşüləndir: "Siyasətdə istənilən addımın çoxcəhətli effekti olur. Ola bilər, referendumun ovqatını seçki rəsmiləri üçün müəyyən etmiş olsunlar. Lakin belə davranışla həm də siyasi narahatlığın alt yapısını da nümayiş etdirmiş olurlar. Azərbaycan müxalifəti təxribatlara, qanundan kənara hərəkətlərə meylli müxalifət deyil. Odur ki, iqtidar mənsublarının narahatlığı müxalifətlə bağlı ola bilməz. Bu gün təxribat yaratmaq imkanı olan varsa, onlar yalnız iqtidar dəhlizlərində dolaşanlardır. Çünki opponentlərin ən azı səsvermə dönəmində bunu etmək üçün nə resursları, nə də təşkilati imkanları vardır. Diqqət yetirin, müxalifətdən yalnız bir təşkilat referendumda fəal iştiraka qərar verib. Digərləri prosesdən kənarda qalmağa üstünlük veriblər. Bunu rəsmi dairələr bilməmiş deyil. Deməli, rəsmi opponentlər növbəti dönəmdə fəallığa qərar veriblər. Əgər hakimiyyət rəsmiləri əndişə ifadə edirlərsə, deməli özününkülərdən, narazılığı saatbasaat artan əhalidən və beynəlxalq çevrələrdən arxayın deyillər. Baş verən həbslər də, dünən səslənidirilən həmin xəbərdarlıq xarakterli mövqe də cəmiyyətdə xof yaratmağın açıq nümunəsidir. Sonda bunun rasional yol olmadığını bildirmək istəyirəm. Heç bir qorxu hissi obyektiv reallığı üstələyə bilməz, yalnız baş verəcəkləri ertələyə bilər. Vəziyyətdən çıxış yolu kəmərləri sıxmaqdan deyil, cəmiyyətdə toplanmış neqativ enerjini azaltmaqdan keçir".

❑ **E.SEYİDAĞA**

# Amerika ölkəmizdə real müxalifət kimi REAL-ı görür?

## ABŞ səfirinin qurumun rəhbərləri ilə görüşü bəzi müzakirələrə səbəb olub

**REAL-ın icraçı katibi Natiq Cəfərli başda olmaqla, qurumun bəzi fəallarının həbsləri Qərb tərəfindən ciddi narahatlıqla qarşılanıb. Bununla bağlı avqustun 17-də ABŞ-ın Azərbaycandakı səfirliyində səfir Robert Sekuta, səfir müavini William R. Gill, səfirliyin siyasi şöbənin müdiri Zia Syed, səfirinin siyasi işlər üzrə müşaviri Susan Chesly ilə REAL Hərəkatının İdarə Heyətinin üzvləri Erkin Qədirli və Rəsul Cəfərov arasında görüş keçirilib.**

**REAL rəsmi saytında görüşdə müzakirə olunan məsələlərlə bağlı məlumat yayıb**: "Görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, REAL-ın lideri İlqar Məmmədovun qanunsuz həbsdə saxlanılması, REAL-ın icra katibi Natiq Cəfərlinin, Nəsimi-Səbayel məclis başqanı Toğrul İsmayılovun və Binəqədi məclisinin başqan müavini Elşən Qasımovun qanunsuz həbsi, konstitusiyaya dəyişikliklərlə bağlı referendum və digər siyasi məsələlər müzakirə edilib".

ABŞ səfirinin REAL rəhbərliyi ilə keçirilən görüşü geniş müzakirələrə səbəb olub. Sekutanın bu addımı Amerikanın son həbslərdə REAL-a dəstəyi kimi qələmə verilir. Bundan əlavə, rəsmi Vaşinqtonun Azərbaycanda real müxalifət kimi REAL-ı görməsi barədə də fikirlər dolaşır. Çünki indiki şəraitdə təkcə REAL deyil, digər təzyiqlərə məruz qalan siyasi qurumlar da var. Buna baxmayaraq, Sekutanın görüş üçün bu qurumu seçməsi bəzi suallar yaradıb. REAL-la bağlı gəzən söz-söhbətlər təkcə bunlarla bitmir. Respublika Prokurorluğunun Natiq Cəfərlinin həbsi ilə bağlı yaydığı məlumat da müzakirə olunur. Qeyd edək ki, həmin məlumatda N.Cəfərlinin ifadəsində qrant almasında REAL-ın həbsdə olan rəhbəri İlqar Məmmədovun köməyinin olması barədə fikirlər səsləndirdiyi deyilirdi. Doğrudur, Cəfərli Apelyasiya Məhkəməsində bunu təkzib etdi. Amma bu da müzakirələrin səngiməsinə səbəb olmadı. Belə fikirlər dolaşır ki, bu məlumatın yayılmasında məqsəd İ.Məmmədovun cəzasını ağırlaşdırmaqdır.



Robert Sekuta

**ABŞ səfiri ilə görüşdə iştirak edən REAL-ın icraçı katibi Rəsul Cəfərov** "Yeni Müsavat"a açıqlamasında bunları deyib: "Görüşdə mövqeyimiz və baş verən həbslərin detalları müzakirə edildi. Görüşün özü qənaətedicidir, amma əsas məsələ həbslərlə bağlı beynəlxalq ictimaiyyətin mövqeyinin qənaətbəxş olub-olmayacağıdır ki, bunu da yaxın gələcək göstərəcək. Bu görüşü müxalif qurum kimi REAL-a olan maraq kimi qiymətləndirirəm. ABŞ səfirliyi digər səfirliklər kimi Azərbaycanda baş verən ictimai-siyasi prosesləri izləyir və dəfələrlə açıq şəkildə bəyan ediblər ki, onların ölkəmizlə əməkdaşlığında demokratiya və insan haqları məsələsi prioritetlərdən biridir. Düşünürəm ki, REAL-la görüş bu ümumi işin tərkib hissəsi olub və istənilən digər maraqlanan tərəflərlə də görüşməyə hazırıq. Natiq Cəfərlinin həbsi, fəallarımızın saxlanılması narahatlıq doğurur. Bu görüşü də həmin narahatlığın təzahürü kimi qiymətləndiririk. Biz ilk növbədə, öz vətəndaşlarımızın dəstəyini qazanmaq haqqında düşünürük və bu istiqamətdə fəaliyyət göstəririk. Bir şeyi dəqiq bilirik ki, REAL müxalif qurum olaraq öz potensialına inanır və təmsil etdiyi dəyərlərin qalib gələcəyinə inanır. REAL kənardan necə qiymətləndirilirsə, bu həmin qiymətləndirmə aparanların öz mövqeyidir. Zərurət olanda bu kimi mövqelərə münasibət bildiririk".

**REAL təmsilçisi İ.Məmmədovun cəzasının artırıla biləcəyi barədə dolaşan fikirlərə də münasibət bildirdi**: "Natiq Cəfərli məhkəmədə bu açıqlamanı verməsəydi belə, biz əmin idik ki, o, prokurorluğun iddia etdiyi kimi ifadə verməyib. Çünki o, saxlanılarkən ümumiyyətlə, ifadə verməyib. Bundan əvvəl dindirmələr zamanı verdiyi ifadələri az-çox bilirdik. Ona görə məsələ bizə aydın idi. Özü də təkzib edib. İlqar Məmmədov da Natiqin həbsi ilə bağlı açıqlama verib. Bu məsələ artıq bizim üçün bitib. Burada hüquqi məsələlər yoxdur, sırf siyasi işdir. İstənilən addım da siyasi olacaq və həmin addıma da öz siyasi mövqeyimizi ifadə edəcəyik. İlqar da, Natiq də qeyd-şərtsiz və dərhal azadlığa buraxılmalı olan şəxslərdir. İlqar Məmmədov barəsində bununla bağlı Avropa Məhkəməsinin də qərarı var".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

# "YAP-a debatlara çıxmaq qadağası qoyulub"

## Sərdar Cəlaloğlu xalqın və müxalifətin passivliyinin səbəblərini açıqladı

**Konstitusiya dəyişiklikləri üçün keçiriləcək referenduma 36 gün qalıb. Bu cür mühüm hadisəyə kifayət qədər az vaxt qalmasına baxmayaraq, cəmiyyətdə heç bir seçki ab-havası, aktivlik müşahidə edilmir. Belə bir paradoksal vəziyyətin səbəbləri barədə ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a açıqlamalar verib.**

Onun sözlərinə görə, Azərbaycanda referenduma, konstitusiya dəyişikliyinə cəmiyyətin nə müsbət, nə mənfi reaksiya verməməsi bir neçə səbəblə bağlıdır. Birinci səbəb odur ki, xalq apolitik vəziyyətə düşüb. Ortada apolitik cəmiyyət var. Ona görə də xalqın, cəmiyyətin nə siyasi hadisələrə hər hansı şəkildə nə sosial, nə iqtisadi hadisələrə reaksiyasını görürük: "İkinci səbəb ölkədə konstitusiya və digər qanunların reallıqda formal daşıdığını xalqın görməsidir. Xalq, insanlar öz həyatlarında, praktikalarında şahidi olurlar ki, qanunlara məhəl qoyulmur. Ona görə də xalqda fikir formalaşır ki, onsuz da qanunlar işləmirsə, orada nə yazılmağının, hansı dəyişiklik edilməsinin əhəmiyyəti yoxdur. Konstitusiyada ən ağlagəlməz dəyişikliklər edilsə belə, yenə xalq reaksiya verməyəcək. Yaxud da konstitusiyaya və digər qanunlara hansısa ən mütərəqqi, əhalinin xeyrinə maddələr daxil edilsə belə, buna xalq reaksiya verməyəcək. Azərbaycanda hüququn gücü olmadığı üçün vətəndaşlar qanunlara formal bir şey kimi baxır. İnkişaf etmiş ölkələrdə insanlar bilir ki, Konstitusiyanın hər bir cümləsi onun taleyini həll edir. Ona görə də Konstitusiyaya edilən hər bir dəyişikliyi izləyir, ona reaksiya verir, mövqeyini bildirir. Pozitiv islahatlara gedilirsə, prosesə dəstək verir, mənfi istiqamətdə dəyişikliklərə gedildiyini görürsə, buna qarşı çıxır.

Azərbaycanda konstitusiya qəbul olunan gündən indiyə qədər keçirilən bütün referendumlara baxsaq görürük ki, konstitusiyaya dəyişikliklərin bir hədəfi olub. O da siyasi hakimiyyətin möhkəmləndirilməsinə şərait yaratmaq olub. Əslində isə konstitusiya islahatları vətəndaşların sosial-siyasi hüquqlarının daha da genişləndirilməsini təmin etməyə yönəlməlidir. Xalq bunu görmədiyi üçün dəyişikliyə, referenduma laqeyddir. Xalqın, cəmiyyətin heç bir reaksiya verməməsi, laqeydliyi heç də razı olması demək deyil. Xalq ümumiyyətlə, qanunların olub-olmamasında maraq nümayiş etdirmir. Çünki qanunların formal xarakter daşıdığına özü üçün əmin olub. Vətəndaşlar üçün fərqi yoxdur ki, ona görə formal xarakter daşıyan qanunlar nə şəkildə dizayn edilir. Bu gün hətta Konstitusiya dəyişikliyi olmasa belə, İlham Əliyev özünə üç nəfər vitse-prezident təyin eləsə, kimsə deməyəcək ki, niyə təyin elədi, xalqdan heç bir reaksiya olmayacaq".



**"YAP tamamilə passiv bir vəziyyətə keçdiyi üçün müxalifət də məcburdur ki, ona uyğun passiv vəziyyətə keçsin"**

**Siyasi müxalifətin aktiv reaksiya verə bilməməsinə gəldikdə isə ADP sədri bildirdi ki, bunun da bir sıra səbəbləri var:** "Siyasi müxalifət siyasi iqtidarın əksidir. Əksliklərin tərəqqi qanununa görə əkslərin bir tərəfindəki vəziyyət, digər tərəfində də vəziyyətin dəyişməsinə səbəb olur. Azərbaycan iqtidarı YAP-ın passivləşdirməklə, müxalifətin də passivləşməsinə gətirib çıxardı. Xatırlayırsınızsa, bir zamanlar müxalifətlə YAP-ın üzvləri efirdə debatlara çıxırdı. Bu gün isə belə şeylər yığışdırılıb. YAP-a debatlara çıxmaq qadağası var. Nəticədə müxalifət də passivləşib. Biz müxalifət olaraq YAP-la mübarizə aparırıq, dövlətlə mübarizə aparırıq. YAP tamamilə passiv bir vəziyyətə keçdiyi üçün Azərbaycan müxalifəti də məcburdur ki, ona uyğun passiv vəziyyətə keçsin. Digər səbəb ondan ibarətdir ki, müxalifətin apardığı hər hansı aktiv mübarizədə qarşısına YAP-ın yox, hüquq-mühafizə orqanlarının çıxdığını görür. Biz siyasi mübarizəyə qalxanda bizə YAP cavab vermir, bizə cavab verən hüquq-mühafizə orqanları olur. Azərbaycan müxalifətinin tərəf müqabili simasında YAP yox, rəsmi dövlət orqanları çıxış edir. Bu da iç mübarizəni dövlətlə mübarizə səviyyəsinə gətirib çıxarır ki, indiki şərtlərdə də müxalifətin bu cür mübarizədə iştirakı yanlış olardı. Çünki bölgədə baş verən hadisələr Azərbaycan üçün olduqca təhlükələrə yol aça bilər. Əgər biz əvvəlki illərdəki kimi küçələrə çıxıb dövlət orqanları ilə qarşı-qarşıya dayana bilmərik. YAP siyasi səhnəyə çıxsın ki, biz onunla mübarizə aparaq.

Passivliyin üçüncü səbəbi müxalifət partiyaları ilə xalq arasında bir səddin çəkilməsidir. Xalqla ünsiyyət imkanları müxalifətin əlindən alınıb və xalqa təsir etmək imkanları az qala sıfıra endirilib, nəticədə müxalifət partiyaları zəifləyib. Bütün sadaladığım məsələlər müxalifətin də referendumla bağlı aktivlik göstərməməsinə gətirib çıxarıb".

❑ **E.SEYİDAĞA**

# NİDA liderindən önəmli açıqlamalar

## Rəşadət Axundov: "Müxalifətə təzyiqlər etməklə iş bitmir"

**Son günlərdə həbslər dalğasına məruz qalan qurumlardan biri də NİDA Vətəndaş Hərəkatıdır. Avqustun 13-də təşkilatın üzvü Elgiz Qəhrəmanlı barəsində 4 aylıq həbs-qətimkan tədbirinin seçilməsinin ardından bir sıra NİDA-çı gənclər, o cümlədən, qurumun rəhbərlərindən sayılan Turqut Qəmbər avqustun 18-də müvəqqəti olsa da saxlanıldı və bəzi təzyiqlərə məruz qaldılar.**

**NİDA-nın liderlərindən olan keçmiş vicdan məhbusu Rəşadət Axundov** son günlərdə təzyiqlərə məruz qalmaları ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bəzi önəmli məqamlara toxundu: "Təkcə NİDA hədəfə çıxmayıb, əksər təşkilatlarda vəziyyət eynidir. Bu baxımdan NİDA-nı fərqləndirmək istəməzdim. Təzyiqlərə məruz qalan təşkilatlarda əsas qüvvə gənclərdir. Gənclik həmişə mübarizədə ön plana çıxırlar. Dəyişikliyə can atan əsas qüvvə də gənclərdir. Dünyanın hər yerində belədir. Bu baxımdan həbslərə gənclərdən başlamaq əsas səbəblərdən biridir. Qarşıdakı zamanlarda da təhlükələri gözləmək olar. Son hadisələr göstərdi ki, gələcəkdə daha təhlükəli hadisələrin baş verməsi mümkündür. Vəziyyət günü-gündən pisləşir. NİDA hazırda öz fəaliyyətini davam etdirir. Ölkədə hər hansı bir qarşılıq, zorakılıq yaratmaq niyyətimiz yoxdur. Öz prinsiplərimizə sadiq şəkildə dinc yolla mübarizəmizi davam etdirən təşkilatıq. Bundan sonra bu şəkildə fəaliyyət göstərəcəyik. Arzu edirəm ki, hakimiyyət bu repressiyaları dayandırsın. Bunun nə ölkəyə, nə də onların özlərinə xeyri var. Azərbaycanın imicinə ciddi zərbə vuran məsələdir. Böhran dövründə iqtisadi islahatlar keçirmək, xalqın güzəranını yaxşılaşdırmaq lazımdır. Düşünürəm ki, bu həbslərin səbəblərindən biri də problemi arxa plana keçirməkdir. Amma



bunun baş tutacağına inanmıram. Hakimiyyət real işlər görməyə məcburdur. Müxalifətə təzyiqlərə etməklə iş bitmir".

**R.Axundov bu ilin martında azadlığa çıxması ilə hakimiyyətin siyasi məhbus problemi istiqamətində başlatdığı müsbət işləri dayandırmasına belə aydınlıq gətirdi:** "Martdan bu yana atılan addımların köklü olmasa da, müsbət simptomları var idi. İnsanlar düşünürdülər ki, bu problemin müsbətə doğru həlli istiqamətində müəyyən addımlar atılır. Amma müxtəlif fərdlərin azad edilməsi əslində siyasi məhbus problemini həll etmədiyini göstərdi. Son günlərdəki həbslər onu da göstərdi ki, əvvəlki illərdən baş qaldıran problemlər yenidən aktuallaşa bilər. Avropada, xüsusilə, ABŞ-da bu problemin yenidən gündəmə gətirilməsi mümkün haldır. Beynəlxalq təşkilatlar tərəfindən bu məsələlər hakimiyyətin diqqətinə indiyə qədər dəfələrlə çatdırılıb. Məsələ dalğavari şəkildə cərəyan edir. Son illərdə beynəlxalq təşkilatların Azərbaycandakı siyasi məhbuslarla bağlı fəaliyyətlərinin bir qədər səngiməsinə səbəb məncə yorulmalarıdır. Hakimiyyətlə hər hansı bir razılaşmaya gedə biləcəkləri fikirləri ilə qətiyyən razı deyiləm. Sadəcə əllərini üzüblər. Ona görə əvvəlki reaksiyalarını vermirlər. Bu da iqtidara bəzi imkanlar qazandırır. Hakimiyyətin rəqib düşərgəni tamamilə sıradan çıxarması mümkünsüzdür. Sadəcə gələcək hadisələrdən özünü indidən sığortalamaq istəyir. 2017-18-ci illərdə iqtisadi vəziyyət daha gərgin olacaq. Həmin dövrə indidən hazırlaşırlar. Onu da qeyd edim ki, Azərbaycan hakimiyyəti son zamanlarda seçim etmək sürəcinə daxil olub. Qərb, Rusiya, Türkiyə və İranla seçim etmək mərhələsindədir. Açığı istəmirəm ki, bu seçim olsun. Regionda xoşagəlməz proseslər baş verir. Amma bu reallıqdır ki, vəziyyət pisə doğru dəyişir. Hakimiyyətin də seçimi heç də müsbət görünmür".

❑ **Cavanşir ABBASLI**

## Daha iki gənc barədə həbs qərarı



**Avqustun 18-də AXCP Xətai rayon şöbəsi Gənclər Komitəsinin sədri Fuad Əhmədli və Suraxanı şöbəsinin fəalı Qədim Bəkirov saxlanılıblar. Onları Bu barədə "Turan" AXCP-yə istinadən məlumat yayıb. F.Əhmədlini Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları saxlayıb. Onun evinə baxış keçirilərkən bir sıra kitablar götürülüb. Fuad Əhmədli barəsində 48 saat saxlanma qərarı çıxarılıb. Bu barədə onun atasına dövlət tərəfindən ayrılan vəkil məlumat verib.**

Qədim Bəkirov isə Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. Suraxanı Rayon Məhkəməsində AXCP üzvü Qədim Bəkirovun məhkəmə prosesi keçirilib.

APA-nın məlumatına görə, məhkəmə onun 25 sutka müddətinə inzibati qaydada azadlıqdan məhrum edilməsi barədə qərar qəbul edib. Q.Bəkirov İnzibati Xətalar Məcəlləsinin 535-ci *(polisin qanuni tələbinə tabe olmama)* maddəsinə əsasən təqsirli bilinib.

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016



# Cibişdan məhbusu Patrik müəllim

Zamin HACI
zaminhaci@gmail.com

**"Patrikin bığları eşmə-eşmədir,**
**Yaxası medaldan deşmə-deşmədir,**
**Avropa Oyunu daha keçmədi,**
**Qoy sənə desinlər, ay qaçaq Hikki,**
**Rioda ilişdin, ay qoca Hikki"**

*("Avropa Oyunları" dastanından, aşıq Z.H.Qaçqınbəyli)*

**İndiyə qədər dəfələrlə olub ki, yapistlərlə əməkdaşlıq edən xarici vətəndaşlar quldur çıxıblar. Hansısa cinayət əməlinə görə yaxalanıblar, bəziləri qaçıb gizlənib, atışmada öldürülən, saxlanarkən intihar edən, nə bilim, prezident vəzifəsindən impiçmentlə qovulan... Maşallah, hökumətimizin beynəlxalq dostları çox zəngin həyat təcrübəsinə malikdir, haqlarında kino çəksən "Qurdlar vadisi" serialından uzun çıxar.**

Təzəlikcə Braziliyada da birini tutub salıblar qoduqluğa. Bu adam Patrik Hikki adında hikkəli kişidir, bədbəxt və uca millətimizin yadında bizə Avropa Oyunları kimi əcaib turniri sırıyan tip olaraq qalmışdır. İrlandiyalı idman məmuru imiş, Braziliyada isə biletləri oğurlayıb satıb 4 milyon dollar qabağa düşmək istəyibmiş. Polis bunu saxlayanda bir qədər altını batırıb, xəstəxanaya düşübdür, ancaq son məlumata görə sağ-salamatdı, ifadəsi alınır.

Əslində bayaq Avropa Oyunlarını onun bizə sırıdığını rəmzi olaraq yazdım, çünki sevgili xalqımıza tam da məlum deyil o bərbad oyunları bizə sırımışdılar, ya bizim hökumət özü təşəbbüs qaldırmışdı. Çünki həmin oyunlar elə birinci və axırıncı keçirilənə oxşayır, 2-ci turnirə hələlik yiyə duran yoxdur. Mənasız, reytinqsiz turnir kimə lazımdır? Elementar misal çəkim: təsəvvür edin, 1-ci Avropa Oyunlarında Rusiya və Azərbaycan komanda hesabında 1-ci və 2-ci yeri tutmuşdular. Ancaq hazırda olimpiadada Azərbaycan medal sıralamasında Ermənistandan da geri qalır, Rusiyanın idmançılarının isə yarıdan çoxu dopinqlə tutulub çıxdaş ediliblər.

Hər halda, Patrik müəllim indi dardadır, bizim yapistlər isə nəinki qazamat dalını dələməyə çalışırlar, hətta adi etiraz bəyanatı verməyiblər. Yoldaşlığınız bu idimi? Özü də Patrik müəllimi Braziliya polisi hoteldə saxlayanda onun hamam xalatının yaxasında Azərbaycanın verdiyi "Şərəf" ordeni var idi. Bundan başqa, Patrik Hikki Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinə görə "1-ci dərəcəli Əflatun Amaşov" medalı, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına görə "Tərəqqi" medalı, Qarabağ həqiqətlərini yaydığı üçün "İgidliyə görə 3-cü dərəcəli Vətənə xidmət ordeni" və sairə dövlət mükafatlarımızı da almışdır. Ancaq hökumətimiz indi onu adi vəkillə təmin eləməyin də qayğısına qalmır. Ey gidi dünya... Məmməd Aslanın Səddam Hüseynə koalisiya hücumu zamanı yazdığı misra yadıma düşdü: "Orda bir şir darda qalıb bağırır!".

Patrik Hikki-nin müdafiəsi bizim gələcək etibarlı tərəfdaş olmağımıza da lazımdır. Çünki indi hamı, bütün dünya baxır ki, görəsən dünyanın analoqu olmayan dövləti, inkişafın atası, işsizlərin anası, ÜDM-in babası, gələcəyin xalası (başqa söz tapa bilmədim, mənası yoxdur, yola verin) Azərbaycan Respublikası öz əziz, şərəfli dostunu necə qoruyacaqdır. Şərəf vermisənsə - lap ordeni olsun - axıra qədər ver.

Elmar Məmmədyarov ən azı Braziliyaya nota göndərməlidir. Lazım gəlsə, Masallının "Viləş", Füzulinin "Ərgünəş" komandalarında oynayan bütün braziliyalı oyunçuları geri qaytarmalıyıq. Braziliya ilə iqtisadi əlaqələr kəsilməlidir. Düzdür, elə bir əlaqə yoxdur, ancaq nəsə tapıb kəsmək olar - ona qalsa gündə olmayan obyektlərin qırmızı lentini kəsirik.

Siyasi dustaq İlkin Rüstəmzadənin idmana böyük məhəbbət bəslədiyi məlumdur. Məncə onu Patrik Hikki ilə dəyişdirmək də gizli diplomatik danışıqlara tema ola bilər. Biz İlkini veririk, braziliyalılar Patriki verir. Qoy Rüstəmzadə getsin Kapakabana çimərliyində gözəlçələrlə karnaval eventi yaratsın. (Başqa cür İlkin Braziliya xalqına nə üçün vacib ola bilər - tapmadım. Cavan uşaqdır, beyni qandır, şou, event, tədbir düzəltməyin də ustasıdır).

**Müxalifət öz dustaqlarına vicdan məhbusu adı qoyub, təklif edirəm, yapist dustaqlara da cibişdan məhbusları deyək.**

# Azərbaycan-Qərb münasibətləri yenidən gərgin müstəviyə keçir

## Beynəlxalq təşkilatlardan iqtidara yönəlik sərt bəyanatlar artır; ABŞ və Britaniya proseslərə qoşulur

**Son günlərdə Azərbaycanla Qərb arasında münasibətlərin yenidən gərginləşməyə başlayıb. Xüsusilə, REAL-ın icraçı katibi Natiq Cəfərlinin həbsi ilə başlayaraq, bəzi REAL-çı və NİDA-çı gənclərin saxlanılmasından sonra Qərbdən gələn bəyanatlar belə düşünməyə əsas verir.**

Həbslərin başlanmasının ardından beynəlxalq aləmdən həbslərlə bağlı Azərbaycana yönəlik təpkilərin olması Qərb-Azərbaycan münasibətlərinin gərginləşməsi istiqamətində yeni mərhələ kimi qələmə verilir. Onu da qeyd edək ki, ölkəmizdə referendum qərarının verilməsinin ardından susqun görünən Qərb son həbslərin fonunda gələn ayın 26-də keçiriləcək referenduma da öz mövqelərini nümayiş etdirməyə başlayıblar.

Avropa Birliyinin Azərbaycanla bağlı yaydığı son bəyanatda, referenduma çıxarılan dəyişikliklərə və REAL-ın icra katibi Natiq Cəfərlinin həbsinə toxunulub. Birliyin bəyanatında digər müxalif fəalların da həbs edilməsindən ciddi narahatlıq yaratdığı vurğulanır: "Ölkədə siyasi idarəçilik sahəsində ciddi dəyişikliklər nəzərdə tutan referendum ərəfəsində hökumət real demokratik müzakirələr təşkil etməyə borcludur. Bununla yanaşı, hesab edirik ki, Azərbaycan üçün Venesiya Komissiyasının rəyi həlledici əhəmiyyət kəsb edir" deyə, Avropa Birliyinin bəyanatında bildirilir.

Böyük Britaniyanın Avropa və Amerika işləri üzrə naziri Alan Dunkan da yeni həbslər dalğasından ciddi narahat olduğunu bəyan edib. Bu barədə məlumat Böyük Britaniya hökumətinin saytında yerləşdirilib. Bəyanatda Natiq Cəfərli də daxil olmaqla bir neçə müxalifətçinin həbsindən ciddi narahatlıq ifadə olunur: "Mən Azərbaycan hakimiyyətini beynəlxalq öhdəliklərinə, qanunun aliliyinə hörmət etməyə çağırıram"deyə, bəyanatda qeyd olunur.

**ABŞ-ın BMT-dəki səfiri Samantha Power "Twitter" hesabında Azərbaycanda son günlərdə gedən proseslərlə bağlı status paylaşıb:** "Azərbaycan hakimiyyətini jurnalist Xədicə İsmayılovaya səyahət qadağasını qaldırmağa və müxalifət fəalı Natiq Cəfərlini və azadlıqlarından istifadəyə görə həbs olunmuş digərlərini azadlığa buraxmağa çağırıram" deyə, səfir bildirib.

Bundan əlavə, tərkibində 19 təşkilatın təmsil olunduğu beynəlxalq koalisiya da Azərbaycandakı həbslərlə bağlı bəyanat qəbul edib. Bütün bunlar vəziyyətin nə qədər ciddi olduğuna bir işarədir.

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, beynəlxalq aləmdən gələn açıqlamalar gərginliyə xidmət edir: "Natiq Cəfərli Azərbaycan dövlətinə problem yaradacaq şəxs deyil. Bu şəxs Azərbaycan və xaricdə tanınan, dəyərli fikirlərə malik insandır. Təsadüfi deyil ki, həbsindən dərhal sonra ABŞ və Böyük Britaniyadan bu barədə açıqlamalar oldu. Bunun özü gərginliyə xidmət edir. Hakimiyyətdə sanki bir qrup var ki, daim Azərbaycanla Qərb arasında gərginlik yaratmağa çalışır. Bu həbslərin nəyə lazım olduğunu anlamıram. Qərblə münasibətlərin yaxşı olduğu bir vaxtda, dialoqlar təşkil edildiyi zamanda Natiq Cəfərli və digər fəalların həbsi Azərbaycanın maraqlarına xidmət etmir. Natiq Cəfərlinin qrant alması barədə fikirlər səsləndi. Axı bununla bağlı bir neçə il öncə həbslər həyata keçirildi, hətta bəzi şəxslər sonradan sərbəst buraxıldı. Bundan sonra əvvəlki vəziyyətə qayıtmağın heç bir anlamı yoxdur. Əvvəldə qeyd etdiyim kimi, iqtidar daxilindəki qrup Qərblə münasibətlərin düzəlməsinə imkan vermir. Amma bütün bunlar o demək deyil ki, Qərblə Azərbaycanın münasibətləri tam gərginləşəcək. Sadəcə, xoşagəlməz atmosfer yaranacaq. Azərbaycan artıq konstitusiya dəyişikliklərinə gedir. Referendum öncəsi bu həbslərin həyata keçirilməsi nəinki hakimiyyətin, heç ölkə rəhbərinin belə maraqlarına xidmət etmir. Prezident özü də istəyir ki, bu referendum sakit keçsin. Amma həbslər bu prosesə mənfi təsir edir. Qərbin diqqətini daha çox çəkir. Bu məsələlərə bir daha aydınlıq gətirilməli, Qərblə münasibətlərdəki süni gərginlik ortadan qaldırılmalıdır".

**Politoloq mövcud situasiyanın Azərbaycanın Qərbdən uzaqlaşıb, Şimala meyl etməsi anlamına gəlməsi ilə bağlı səslənən fikirlərə də münasibət bildirdi:** "Şimala meyl etmək o demək deyil ki, həbslərin sayı çoxalmalı, siyasi görüşləri olan insanlar sıxışdırılmalıdır. Şimala meyl etməyimizə başlıca səbəb Rusiyanın Dağlıq Qarabağ probleminin həllində prosesləri sürətləndirməsi üçündür. Amma bu hələ də baş vermir. Rusiya böyük dövlətdir, buna görə onlarla normal münasibətlərimiz olmalıdır. Qərbdən ala bilmədiyimiz müasir silahları bu dövlətdən alırıq. Strateji müttəfiqimiz olan Türkiyənin Rusiya ilə münasibətləri yaxşılaşır. Amma bu proseslərdən Qərblə münasibətləri gərginləşdirmək üçün istifadə olunmamalıdır".



**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** Azərbaycanın sanksiyalarla üzləşə biləcəyinin anonsunu verdi: "Bu həbslər həm də ölkədədaxili siyasətin nəticəsidir. Ötən il ölkədəki yüksək rütbəli şəxslərin həbsini yada salsaq, deməli, əvvəlki proseslər hələ də davam edir. Təbii, ölkədəki həbslər yenidən dövlət imicinə ciddi ziyan vurur. Beynəlxalq təşkilatların bəyanatları səslənir. Bəzi qurumlar isə susur. Azərbaycan hökuməti bəzi həbslərin terrorla əlaqəli olduğuna işarə verir. Amma bütün bunları beynəlxalq aləm qarşısında sübut etmək lazımdır. Təbii sübut olmasa ölkəmizi yenidən sanksiyalar mesajı gözləyə bilər".

## Elxan Şahinoğlu: "İqtidar daxilindəki qrup..." Mirvari Qəhrəmanlı: "Ölkəmizi yenidən sanksiyalar mesajı gözləyə bilər"



❑ Cavanşir ABBASLI



# Saakaşvilinin xanımı böyük siyasətə qoşulur

**Gürcüstanın "Milli Birlik Hərəkatı" ölkənin keçmiş prezidenti Mixail Saakşvilinin həyat yoldaşı Sandra Rulofsun deputatlığa namizədliyini irəli sürüb. Virtualaz.org-un "İnterfax"a istinadən məlumatına görə, avqustun 19-da Zuqdudi rayonunun Kortsxeli kəndində çıxış edən S.Rulofs mübarizə aparmağa hazır olduğunu və seçicilərin dəstəyinə ümid etdiyini bildirib.**

Qeyd edək ki, onun rəqibi hakim partiyanın təmsilçisi olan və hazırda Zuqdudi rayon administrasiyasının rəhbəri postunu tutan Edişer Tolorayadır.

Onu da qeyd edək ki, Gürcüstan parlamentinə seçkilər bu il oktyabrın 8-də keçiriləcək.

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

# Qarabağ iki qlobal güc arasında yeni nifaq alması qismində




# ABŞ Ermənistanda Rusiya əleyhinə "Qarabağ bombası" hazırlayır - şok iddia

## Moskva-Ankara münasibətlərinin normallaşması Güney Qafqaz uğrunda ABŞ-Rusiya rəqabətinə xüsusi rəng qatıb; **rusiyalı ekspert:** "Kremlin üç stulda əyləşmək siyasəti yanlışdır, Türkiyə və Azərbaycan bizə Ermənistandan qat-qat vacibdir..."

**Dağlıq Qarabağ məsələsində aprel döyüşlərindən sonra ATƏT-in Minsk Qrupu həmsədrləri səviyyəsində bir müddət özünü göstərmiş həmrəylik və fəallıq daha gözə dəymir. Sülh danışıqları sanki növbəti dəfə dalana girmiş kimidir. Bunun bir səbəbi, nə qədər qəribə də olsa, Güney Qafqazda iki supergücün - Rusiya və ABŞ-ın toqquşan maraqlarıdır.**

Gerçək belədir ki, bu iki dövlət Minsk Qrupunun həmsədrləri qismində ixtilafın həlində nə qədər maraqlı olduqlarını bəyan eləsələr də, ortaq hərəkət imitasiyası yaratsalar da, məhz toqquşan regional maraqlar onları daima bir-birinə ehtiyatlı və şübhəli baxmağa vadar edir.

Bu və digər səbəbdən öncəliklə ABŞ Rusiyanın Qarabağ məsələsində açar roluna əslində qısqanclıqla yanaşır. Ona görə ki, Ağ Ev münaqişənin sırf Kremlin patronajlığı ilə həlli olunmasının bölgədə Rusiyanın nüfuzunun və dominantlığının güclənməsinə gətirəcəyinin fərqindədir. Ermənistandakı son kritik olaylar və bu olaylar zamanı Qərbin faktiki surətdə radikal silahlı qüvvələrə - anti-Sərkisyan qüvvələrinə gizli-aşkar dəstək verməsi də göstərdi ki, Amerika ilə Rusiya arasında Güney Qafqaz uğrunda rəqabət şiddətlənib və bəlkə də həlledici fazaya adlayıb.

Türkiyə-Rusiya barışması fonunda bu, rəqabət indi daha aktual görünür. İstisna deyil ki, Kremli Ankara ilə barışa vadar edən motivlər arasında bu amil da mühüm rol oynayıb. Çünki siyasi analitiklər son zamanlar qonşu Gürcüstanda xeyli dərəcədə möhkəmlənən ABŞ-ın növbəti mərhələdə Ermənistana girişəcəyi real sayırlar.

Qərbin bölgədəki bu de-marşını isə Moskva Qərblə bəlli səbəblərdən indi çox da isti münasibətlərdə olmayan Türkiyə ilə yaxınlaşmaqla önləyə bilər(di). Yeri gəlmişkən, bu yaxınlaşma İran da cəlb olunmaqla Suriya böhranının həllində özünü göstərməyə başlayıb. Suriyadan sonra üçlük Güney Qafqazla, Qarabağ məsələsi ilə bağla ortaq məxrəcə gələ bilər - həm də Qərbin, ABŞ-ın buradakı dominantlığına yol verməmək üçün.

***

"Hazırda ABŞ Dağlıq Qarabağ konfliktindən Rusiyanın Cənubi Qafqazda mövqelərini zəiflətmək vasitəsi kimi istifadə edir". Bu barədə rusiyalı ekspert, Aktual İqtisadiyyat İnstitutunun direktoru Nikita İsayev "Vestnik Kavkaza" açıqlamasında bölgədə ABŞ-Rusiya rəqabətinin xarakterini və perspektivinin şərh edərkən deyib.

Onun sözlərinə görə, bu yöndə rəsmin Vaşinqtona Ermənistandakı anti-Sərkisyan qüvvələri kömək edir. "ABŞ gizlətmir, əksinə açıq şəkildə bəyan edir ki, onun üçün Ermənistan Cənubi Qafqazda və Yaxın Şərqdəki siyasətini həyata keçirmək üçün əsas platsdarm rolunu oynayır. Bu səbəbdən ABŞ-ın guya prezident seçkilərinə, Suriyaya, İraqa, Əfqanıstana başı qarışması səbəbindən Qarabağ münaqişəsi ilə maraqlanmadığı barədə səslənən bəyanatlar blefdir", - deyə ekspert qeyd edib və diqqəti həm də ona yönəldib ki, İrəvandakı Amerika səfirliyi əməkdaşlarının sayına görə dünyada ikinci böyük səfirlikdir.

Onun qənaətincə, Birləşmiş Ştatların Ermənistanda əsas marağı Rusiyanı buradan və Suriyadan sıxışdırıb çıxarmaq, Ermənistanda özünün hərbi bazasını yerləşdirməkdir. Rusiyalı ekspertə görə, ABŞ habelə Ermənistanda Rusiyanın xarici siyasətdəki səhvlərini öz xeyrinə çevirməklə Ukraynadakı proqram üzrə hərəkət edir.

"Mənim fikrimcə, Rusiyanın həm Türkiyə və Azərbaycanla əlaqələri möhkəmlətmək, həm də özünün əsas tərəfdaşı Ermənistanla birgə olmaqla üç stulda əyləşmək siyasəti uğursuzluğa uğrayır. Çünki bizim bu iki ölkədə iqtisadi maraqlarımız qat-qat çoxdur, nəinki Ermənistanda - hansını ki, faktiki surətdə dotasiya ilə saxlayır, hərbi mövcudiyyətimizlə onun təhlükəsizliyini təmin edirik. Həmçinin bölgə üçün aparıcı problem olan Qarabağ məsələsində heç cür öz mövqeyimizi dəqiqləşdirə bilmirik" - daha sonra analitik bildirib.

**Rusiyalı ekspert ardınca deyib:** "ABŞ problemin həlli üçün danışıqlar prosesinin Madrid prinsipləri əsasında aparılmasının zəruriliyini sözdə bəyan eləsə də, əslində Ermənistan daxilində Rusiyanı rusofob ovqata tuş eləmək istəyir, nədən ki, Moskva münaqişənin nizamlanmasında aktiv iştirak edir. Lakin hələ ki konflikt həll edilə bilmir, Ermənistanda belə bir ovqat var ki, Rusiya öz strateji müttəfiqinə açıq şəkildə dəstək vermir".

**Analitik son bir ildə Ermənistanda anti-Rusiya ovqatının 18%-dən 82%-ə çatmasını da təsadüfi hesab eləmir.** "Fakt budur ki, önümüzdə Ukrayna ssenarisi təkrarlanır. Əlbəttə ki, Ermənistan və Ukrayna fərqli ölkələrdir, Ukrayna polietnik, Ermənistan isə monoetnik ölkədir və üstəlik, ondan ötrü Qarabağ məsələsi əsas problemdir. Nə qədər ki, ABŞ Azərbaycanla Ermənistanı aktiv döyüş əməliyyatlarına sövq edir, konfliktin nizamlanmasına kimi situasiya dəyişməyəcək", - deyə ekspert ehtimal edib.

"Əgər Dağlıq Qarabağ münaqişəsi yenidən alovlansa, Orta Asiya da alovlanacaq, ardınca Rusiyanın Şimali Qafqazına təzyiqlər başlayacaq. Bu isə Rusiyanın ərazi bütövlüyü üçün barıt çəlləyidir. Qarabağ isə bütün bunlar üçün başlanğıc rolunda olacaq. Unutmaq olmaz ki, 1980-ci illərin sonlarında SSRİ-nin çöküşünün əsas detonatorlarından biri məhz xaricdən fəal şəkildə qızışdırılan Dağlıq Qarabağ konflikti olub" - sonda politoloq əlavə edib.

***

Beləliklə, rusiyalı ekspertin açıqlamalarından belə bir qənaət hasil olur ki, Qarabağ məsələsinin tezliklə dinc yolla həllini gözləməyə dəyməz, ən azı ona görə ki, Qarabağ iki qlobal güc arasında nifaq alması qismində qalmaqda davam edir. ABŞ-ın Rusiya əleyhinə "Qarabağ bombası" hazırlaması haqda şok iddiasının nə dərəcədə real olduğunu isə yəqin ki, yaxın perspektivdə, habelə Suriya böhranının hansı şəkildə çözülməsi fonunda biləcəyik.

❑ **Analitik xidmət**

# SSRİ-ni dağıdanın giley-güzarı



**Xalid KAZIMLI**

**SSRİ, kommunizm, sovet nostaljisi bitmək bilmir. Son günlər sovet dönəminin ahıl dövlət xadimləri bu mövzuda danışır, SSRİ dövrünü idealizə edir, sovet quruluşunun yaxçı tərəflərini göstərməyə çalışırlar.**

Söz yox, o dövrdə yaşayan obyektiv adamlar sovet dönəmini hərtərəfli xarakterizə edərlərsə, mütləq o dövrün pis tərəfləri ilə yanaşı, yaxşı cəhətlərini də qeyd etməlidirlər.

Gerçəkdən də min bir zülm-zillətlə qurulmuş, milyonlarla günahsız insanın faciəsi, bütöv xalqların deportasiyası, sürgünü sayəsində bahasına başa gəlmiş sovet dövləti artıq qanlı repressiya illərini arxada qoymuş, bəlli bir düzənə sahib olmuşdu, sosialist qanunçuluğu deyilən mərhələyə qədəm qoymuşdu.

Bu dövlətdə pis-yaxşı qanunlar vardı və demokratiyadan əsər-əlamət olmasa da, dövlət strukturlarının bir-birinə nəzarəti güclüydü. Partiya burjuaziyasının mövcudluğu danılmaz idi, ancaq o, vaxtaşırı sıravi xalqın bağrından çıxan kadrlarla zənginləşirdi. Həm də heç kəs partnomenklatura iyerarxiyasında kök sala, qol-budaq ata, özünə milyonlar toplayıb oliqarxa çevrilə bilmirdi. Xalqın şikayətlərinə baxılırdı. Mitinqlər, nümayişlər kimi kütləvi etiraz aksiyalarına yol verilməsə də, xalq öz istəklərini, eləcə də tələblərini yazılı şəkildə, məktub və teleqramlarla lazımi orqanlara çatdıra, müxtəlif məsələləri həll edə bilirdi.

Bunları bir kənara qoyaq. Yoxsa gərək SSRİ dövrünün neqativliklərindən, əyinti-pozuntularından da danışaq. O isə dissident Soljenitsının epopeyaları boyda əsərlərə də sığan söhbət deyil.

Ahıl partokratların SSRİ-yə dair açıqlamalarında bir detal qırmızı xətlə keçir. Onlar SSRİ-nin dağılmasına görə başlıca olaraq ABŞ-ı, Qərbi baiskar göstərirlər.

Dünənə qədər bütün sovet xalqı bu hadisəyə görə SSRİ-nin sonuncu rəhbəri Mixail Qorbaçovu günahkar sayırdı, bu gün isə Qorbaçov özü də dilə gəlib və ABŞ-ı suçlayıb. Qorbaçov deyib ki, "Qərb açıq şəkildə Boris Yeltsinə yatırım etdi".

Qorbaçov bir yerə qədər haqlıdır. Doğrudan da 1988-91-ci illər arasında ABŞ və aparıcı Avropa dövlətləri Kremlə asi düşmüş Boris Yeltsini himayə edir, onun ABŞ-a, Avropaya səfərlərini təşkil edir, ona maddi yardım göstərirdilər. Məsələn, bir dəfə B.Yeltsinə ABŞ-da 1 milyon dollarlıq birdəfəlik şpris bağışlamışdılar, o da gətirib Moskvadakı klinikalara hədiyyə etmişdi və bu, geniş şəkildə piar olunmuşdu.

Ancaq Qorbaçovun özü də Qərb tərəfindən həvəsləndirilirdi. Ona Nobel mükafatı verirdilər, Avropa mətbuatında "sovet demokratı" deyə öyür, düz yolda olduğunu bildirirdilər. O, demokratiyaya qətiyyən hazır olmayan bir cəmiyyəti demokratikləşdirməyə çalışır, eyni zamanda öz haqqını tələb edən xalqları da cəzalandırırdı.

Məsələn, təkcə Qarabağ məsələsində Qorbaçovun tutduğu yaramaz mövqe SSRİ-nin süqututun əsas səbəblərindən biri oldu. Belə çıxırdı ki, ermənilərin öz müqəddəratlarını ikinci dəfə təyin etmək hüququ var, amma başqa millətlər bu haqqa sahib deyil.

Məgər Almatıda, Bakıda, Vilnüsdə, Tbilisidə xalqa qarşı qırğınlar törətməyi Qorbaçovdan ABŞ və Qərb tələb edirdi? Xeyr. Onlar sadəcə "sovet demokratı"nın bu cür addımlarına mat qalır, eyni zamanda susurudlar, uçuruma gedən qatarı saxlamağa cəhd etmirdilər, başa düşürdülər ki, çətini lokomotivin girdaba yuvarlanmasıdır, ondan sonra bütün vaqonlar onun ardınca gedəcək.

SSRİ-nin süqutuna görə Qərbi yalnız ona görə qınamaq olar ki, onlar dağıdıcı prosesin dayanması üçün müdaxilə etmədilər. Əslində nə ABŞ, nə də digər dünya gücləri SSRİ-nin dağılması gerçəkliyinə hazır deyildilər, günlərin bir günü onlar fakt qarşısında qaldılar və çox məmnun oldular. Qərb hesab edirdi ki, trilyonlar töksə də, SSRİ-ni dağıda bilməz, amma gün gəldi ki, bəsirətsiz, kütbeyin, alkoqolik rəhbərlər dünyanın ərazicə ən böyük dövlətini param-parça etdilər.

Əlbəttə, bu gün biz "nə yaxşı ki, SSRİ dağıldı və biz müstəqil dövlət olduq" deməliyik. Fəqət sovet totalitarizmindən qurtulub milli avtoritarizmin pəncəsinə keçdiyimiz üçün "müstəqillik" deyəndə bir gözümüz gülür, digəri ağlayır.

**Kiçik dövlətdə yaşamağın üstünlükləri ilə yanaşı, böyük iztirabları və məsuliyyəti də var. Böyük dövlətdə yaşayanda da gərək demokratik və firavan ölkənin geniş hüquqlara malik subyektində yaşayasan, daha hər dəqiqə kütləvi cəzalar tətbiq edilən müstəmləkəsində yox.**

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

# "Biz Afrika ölkəsiyik, yoxsa "banan" ölkələrindən biriyik?"

## Siyavuş Novruzov: "Azərbaycana heç bir dövlət, heç bir beynəlxalq təşkilat hər hansı bir sanksiya tətbiq edə bilməz"

**Azərbaycandakı son həbslərdən sonra ABŞ və Böyük Britaniyadan müxtəlif reaksiyalar gəldi. Xeyli müddətdir sükuta dalmış Qərb paytaxtlarının mövqeyində baş verənlərdən narahatlıq ifadə olundu. Elə YAP-ın icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovdan gündəmi əhatə edən söhbətimizdə əvvəlcə bu barədə soruşduq.**

***- Siyavuş bəy, Azərbaycandakı həbslər və sentyabrdakı referendum arasında əlaqənin olduğu barədə iddialara sizin münasibətiniz necədir?***

- Qəti şəkildə belə bir əlaqə yoxdur. Onların bəyanatında da göstərilir ki, guya referendum ərəfəsində belə bir addımın atılması məqsədəuyğun deyil. Yenə də bəzi dairələr, Azərbaycanda ictimai-siyasi vəziyyəti qarışdırmağa çalışan, erməni lobbisinə xidmət edən qüvvələr var, onların vasitəsilə qrant alanlar, o qrantları müxtəlif siyasi partiyalara çatdıranlar var. Yəni məqsəd həmin partiyalara maliyyə dəstəyinin verilməsi və onların mətbuat orqanlarının çapına kömək etməkdir. Buna görə də QHT-lər yaradılır və onların vasitəsilə qrantlar verilir. Həbslərə gəldikdə, ortada vergidən yayınma faktı var. ABŞ-ın özündə ən böyük cinayət vergidən yayınmadır, təxminən elə adam öldürməklə eyni səviyyədə ölçülür. Çünki bununla vətəndaşın sosial təminatına qəsd edirsən. Azərbaycanda 3 mindən artıq QHT fəaliyyət göstərir, dövlət dəstəyi var. Amma onlardan şəffaflıq tələb olunur. Şəffaflığın tələb olunması da ordan irəli gəlir ki, hər hansı dairənin, xarici kəşfiyyat orqanının marağı bu ölkədə həyata keçirilməsin. Qardaş Türkiyədəki 15 iyul hadisələri zamanı şahidi olduq ki, başqa maraqlı dairələr orada dövlətin sütunlarına zərbə endirməyə, hətta dövlət çevrilişi həyata keçirməyə yönəlik addım atdılar. Bu kimi məsələlərin qarşısının alınması üçün əlbəttə ki, dövlət həmişə şəffaflığın tərəfdarıdır. Dövlət müəyyənləşdirməlidir ki, hansı təşkilat haradan qrant alır və əvəzində hansı proqramı yerinə yetirir. Bu, birinci ordan irəli gəlir ki, o qrant verən təşkilat ilk növbədə özü korrupsiyaya uğrayıb və verilən qrantın böyük hissəsini özü mənimsəyib. Bu yaxınlarda elə sizin qəzetdə müsahibəsi də getdi, İsveçrəyə qaçan, arvad paltarında səfirliyə girən şəxs özü utanmadan özü dedi ki, elə bəzənmişdim, hətta anam da məni tanımazdı...240 min dolları vergidən yayındırmışdı. Çox sevincək halda da deyir ki, mənim böyük dostlarım 140 mini ödədilər və mən bunu Azərbaycan dövlətindən mütləq alacağam. Yəni Avropa Məhkəməsi vasitəsilə bunu Azərbaycan qaçqınından, köçkünündən alıb dostlarına qaytarmaq istəyir. Söhbət ondan gedir ki, ayrılan qrantların böyük hissəsinə sadəcə qol çəkdirirlər, pulların böyük hissəsi həmin təşkilatlar tərəfindən korrupsiya mənbəyidir.

***- REAL-ın sədr müavini Natiq Cəfərli vergidən yayınma ittihamı ilə həbs olunub. Amma həbs olunan gənc fəallar da var və hesab edilir ki, bu addımlar referendum öncəsi aktivliyin qarşısının alınması üçündür...***

- Qəti şəkildə belə bir şey yoxdur. Elə bu yaxınlarda iki nəfər narkotik istifadəçisi olduğu üçün həbs olundu. Onlar da adlarını hansısa təşkilata yazdırıb. Narkotikin təsiri altında hansısa addım atılırsa, qanun qarşısında cavab verməlidirlər. Digərləri də davranışlarına, fəaliyyətinə nəzarət etməli, hüququ pozmamalıdır. Əks təqdirdə qanunların aliliyi tətbiq olunacaq. O ki qaldı referenduma, biz Avropa Şurasının üzvüyük və istənilən məsələ ilə bağlı müzakirələr aparırıq. Referenduma çıxarılan məsələlər Azərbaycan xalqının həyat şəraiti, beynəlxalq konvensiyalara qoşulması və digər məsələlərlə əlaqədardır.

### "Parlamentdə Gülənçilər olsa da..."

***- ABŞ rəsmisi Bakıya xatırlatmışdı ki, referenduma çıxarılan məsələlər Venesiya Komissiyasını ilə müzakirə edilsin. Deməli, komissiyanın rəyi yoxdur...***

- Yox, yoxdur. ABŞ, Fransa, Almaniya, Böyük Britaniya hər hansı bir qanun qəbul edəndə, yaxud dəyişiklik həyata keçirəndə Venesiya Komissiyası ilə razılaşırmı, ona göndərirmi? Biz müstəqil ölkəyik, müstəqil şəkildə qanunlarımıza əlavə və dəyişikliklər edirik. Bununla bağlı ağıllı bir tövsiyə verərdilərsə, buna etirazımız olmazdı, bu günə qədər verməyiblərsə, biz onlara deməli deyilik ki, hər hansı məsələdə müəllimlik elə. Hər ölkənin qanunları var. Biz bütün dünya ölkələrinin qanunlarına, konstitusiyasına baxırıq, ordan da istifadə edir, Azərbaycanın dəyərlərinə xələl gətirməmək şərtilə qanunlara dəyişiklikləri həyata keçiririk. Yoxsa get hansısa komissiya ilə razılaşdır... Biz Afrika ölkəsiyik, yoxsa "banan" ölkələrindən biriyik? Biz müstəqil, demokratik dövlətik. Hələ ötən əsrin əvvəlində demokratik respublikamız, qanunlarımız olub. Onlar gəlsinlər, bizdən öyrənsinlər.

***- Amma dünyada Amerika faktoru var. Bu mənada Azərbaycan yenidən sanksiya təhdidləri ilə üz-üzə qala bilərmi?***

- Dünyanın balansı və mizan-tərəzisi itib. Hətta idmanı da siyasətə qarışdırırlar. Bu günlərdə keçirilən olimpiadanı da siyasiləşdirdilər. Ən sönük olimpiada məhz 2016-cı ilə olimpiadasıdır. Rusiyaya qarşı sanksiya tətbiq etməklə, Rusiya idmançılarının oradan uzaqlaşdırılması üçün min oyundan çıxdılar. Bu, hansı beynəlxalq normaya uyğun gəlir? Mənim o idmançıları müdafiə etmək fikrim yoxdur. Amma bir prinsip, yanaşma tərzi olmalıdır. Daha beş formada yanaşma tərzi olmamalıdır. Bu baxımdan Azərbaycana heç bir dövlət, heç bir beynəlxalq təşkilat hər hansı bir sanksiya tətbiq edə bilməz, bunun heç bir mənası da yoxdur. İrana 40 il embarqo tətbiq etdilər, nə oldu? İndi Avropa dövlətləri yalvara-yalvara İranın qapısını kəsdirib.

***- İdmandan danışmışkən, bir sual verim. Bildiyimə görə siz peşəkar idmançısınız...***

- Bəli, sərbəst güləş üzrə.

***- Azərbaycan olimpiyaçıları arasında əcnəbilərin üstünlük təşkil etməsi və hələ də qızıl medal qazana bilməməyimiz çox müzakirə olunur. Bunun səbəbi barədə nə deyə bilərsiniz?***

- Hələ olimpiada bitməyib. Amma Azərbaycan həm idman növünə, həm də idmançıların sayına görə digər olimpiyadalarla müqayisədə daha çox irəlidədir. Hətta hakimlərin də sayını nəzərə alsaq, Azərbaycan daha yüksək səviyyədə təmsil olunur. Amma olimpiyada idmanın pik nöqtəsidir, iştirakçıların çox dünya, Avropa, Olimpiya çempionudur. Digər tərəfdən burada ədalətsizliklər, idmanın siyasiləşdirilməsi də ortaya çıxır. Azərbaycan idmana kifayət qədər diqqət və qayğı göstərir. Mən indi bir söz deyəcəyəm, yəqin ki, bundan sonra tənqidçilər üstümə düşəcəklər. Mən builki Olimpiya Oyunlarına baxıram, görürəm ki, həm təşkilatçılıq, həm keçirilmə, həm açılış, həm ədalətlilik baxımından Azərbaycanda keçirilən Avropa Oyunları Rio Olimpiadasından daha üstün idi, bizdə yarışlar daha yüksək səviyyədə təşkil olunmuşdu. Mən bunu "Yeni Müsavat" qəzetinə deyirəm və heç bir məsuliyyətdən də çəkinmirəm. Ona görə də iri dövlətlər futbol üzrə dünya çempionatından, Olimpiadanın keçirilməsindən qaçırlar. Çünki o qədər iri və maraqlı dövlətlər ortaya ədalətsiz şərtlər qoyur ki, ölkələr bu yarışları keçirmək istəmir və bəlanı öz başından uzaqlaşdırmağa çalışır. O baxımdan da idmanı siyasiləşdirmək olmaz. Bir məsələni də deyim. Elə idman növləri var ki, azərbaycanlıların burada hansısa nailiyyət əldə etmək imkanları məhduddur. Məsələn, elə idman növləri var ki, o, sırf azərbaycanlıların məşğul olduğu idman növləridir. Azərbaycanlılar güləş, boks, taekvando üzrə daha üstündür. Rusiya kimi böyük dövlətdə güləş növündə Şimali Qafqazdan olanlar daha çoxdur. Bu, çox normal bir haldır. Yeni simalar ortaya çıxana qədər legionerlərdən istifadə etmək dünyada qəbul olunmuş normadır. Fransa futbol yığmasına diqqət etsəniz, hamısı qaradərili futbolçulardır. İspaniya yığmasında da başqa xalqların təmsilçiləri az deyil. Almaniyada neçə türk oyunçu var. Bunu qəbahət kimi ortaya qoymaq olmaz. Bütövlükdə əcnəbilərdən ibarət olsa, bu barədə nə isə demək olar. Yaxud dəfələrlə Azərbaycana mükafat qazandıran idmançı haqqında sosial şəbəkədə, ya mətbuatda aşağılayıcı fikir söyləmək doğru deyil. Biz hamımız ona dəstək olmalıyıq ki, gələcək qələbələrini təmin etsin.



**"ABŞ, Fransa, Almaniya, Böyük Britaniya hər hansı bir qanun qəbul edəndə, yaxud dəyişiklik həyata keçirəndə Venesiya Komissiyası ilə razılaşırmı?"**

***- Siyavuş bəy, "Rövşən Lənkəranski"nin qətlə yetirilməsi gündəmin əsas mövzusudur. Sizin bu qətl hadisəsinə münasibətiniz necədir?***

- Allah rəhmət eləsin! Eşitdiyimə görə, azərbaycanlılara çox böyük köməyi dəyib.

***-Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Gülənçilərlə yaxın olan qruplar barədə əllərində olan məlumatları lazımi qurumlara çatdırıblar və birgə fəaliyyət davam edir. Siz də parlamentin müvafiq komitəsinin sədrisiniz, yəqin məlumatınız var. Söhbət hansı qruplardan gedir?***

- Ayrı-ayrı adamların adı çəkilir, o cümlədən partiya sədrləri var ki, onların adı hallandırılır. Hüquq-mühafizə orqanları bunları araşdırmalıdır. Kim qanundankənar fəaliyyət göstəribsə, onun haqqında ölçü götürülməlidir. Bizdə dini icmalar qeydiyyatdan keçib. Dini birliklər haqqında qanun var. Bununla əlaqədar hansı təşkilat qanunlara cavab vermirsə, fəaliyyətində, fundamental əsaslarında hakimiyyətə qeyri-qanuni yolla gəlmək, dövlətin quruluşunu dəyişmək və digər bu kimi motivlər varsa, bu təşkilatlar bağlanmalı və cavabdehlər məsuliyyətə cəlb olunmalıdır.

***- Parlamentlə bağlı da vaxtaşırı iddialar səslənir, deputatlar sırasında Fətullah Gülən tərəfdarlarının olduğu haqda yazılar tirajlanır. Azərbaycan parlamentində belələri varmı, sizin rəhbərlik etdiyiniz komitə bununla bağlı hesabat hazırlayırmı?***

- Parlamentdə belə adamlar olsa da, belə şeyləri büruzə vermirlər. Bilirəm ki, dindarlarımız var, düzgün istiqamətdə dini ritualları yerinə yetirirlər, oruc tutur, namaz qılır, xüms-zəkat verirlər və İslamın qarşıya qoyduğu digər tələbləri yerinə yetirirlər. Biz Dini ekstremizmə qarşı mübarizə haqqında qanun da qəbul etmişik ki, ekstremist dini cərəyanlara Azərbaycanda yer yoxdur, kim bununla məşğul olacaqsa, dərhal qanun qarşısında cavab verəcək.

***- Deməli, parlamentdə Gülənçi deputatın olması mümkün deyil?***

- Təbii ki. Son vaxtlar mən mətbuatda AXCP ilə əlaqədar oxuyuram. Çox güman ki, erməni lobbisindən pul alan bir təşkilat Fətullah Gülləndən pul almaya bilməz. Yəni müxtəlif fikirlər söyləyirlər və bunu danmağa çalışırlar. O cür adamları onlar axtarıb tapırlar, bilirlər ki, beləlləri pula görə nə desən, edərlər. Hesab edirəm ki, bu, ciddi bir məsələdir.

***- Türkiyə FETÖ adlandırılan terrorçu təşkilatın xaricdə də təhlükəli planlar həyata keçirə biləcəyi barədə xəbərdarlıq edib. Azərbaycanda bu təşkilatın dayaqları ola və dövlətçiliyə təhlükə yarada bilərmi?***

- Azərbaycanda insanların dinə münasibəti, ölkədə təhsilin, mənəvi dəyərlərin səviyyəsi heç zaman imkan verməz ki, o cür təşkilatlar Azərbaycan daxilində hansısa bir set yaratsınlar, yaxud dövlətə qarşı hansısa addımlar atsınlar. Ola bilər 5-10 uşaq-muşaq yoldan çıxarılsın, şirnikləndirilsin. Tək burda deyil ki, vətənə xəyanət edənlər, ordumuzun məlumatlarını yayanlar, Ermənistanın ərazisinə qeyri-qanuni keçənlər, gedib orda tədbirlərdə iştirak edənlər, qaçıb səfirlikdə gizlənənlər var. Bu cür adamlar kimdən, hansı təşkilatdan desən, onunla işləyə, yardım ala bilərlər. Amma onlar Azərbaycanda hansısa set yarada bilməzlər. Çünki müdrik xalqımız buna imkan verməz. İkincisi, hüquq-mühafizə orqanları, dövlətin qanunları və dövlətin apardığı siyasət buna imkan verməz.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Prezidentlərin son görüşündən 2 ay ötdü - danışıqlarda təhlükəli pauza uzanır

## Qarabağa dair Kremlin sülh təşəbbüskarlığı imitasiyadır, yoxsa...; **Rusiya prezidentinin xüsusi nümayəndəsi:** "Xalq diplomatiyasını təzədən bərpa eləmək lazımdır"

**"ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ üzrə növbəti yüksək səviyyəli görüşünü hazırlamaq üçün Azərbaycan və Ermənistanla əlaqələr saxlayırıq". Bunu Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik "RİA Novosti" agentliyinə açıqlamasında bildirib.**




Qeyd edək ki, amerikalı diplomat az öncə prezidentlərin növbəti görüşünün nə vaxt baş tutacağını söyləməkdə çətinlik çəkmiş, hələlik yalnız Azərbaycan və Ermənistan XİN başçıları səviyyəsində təmasların mümkünlüyünü dilə gətirmişdi. Prezidentlərin növbəti görüşünün Parisdə, ardınca da Vaşinqtonda reallaşacağı deyilsə də. müşahidələr göstərir ki, bu yöndə ümidlər doğrulmaya bilər. Çünki vaxt az qalıb, hazırlıqlar isə faktiki, gözə dəymir.

***

Bu gün isə Sankt-Peterburqda Azərbaycan, Rusiya və Ermənistan prezidentləri arasında üçtərəfli görüşdən 2 ay ötür. Apreldəki 4 günlük müharibədən sonra Azərbaycan və Ermənistan prezidentləri arasında reallaşan 16 may Vyana və 20 iyun Peterburq görüşlərində kövrək inam yaranmışdı ki, bu görüşlər danışıqlar prosesində irəliləyişi təmin eləmək, böyük müharibə riskini minimuma endirmək üçün əsaslı zəmin yaradacaq.

Əfsus ki, bu da olmadı. Rusiya prezidenti Vladimir Putinin avqustun 8-də Bakıda azərbaycanlı həmkarı İlham Əliyev, 9-da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, 10-da isə Ermənistan prezidenti Serj Sərkisyanla görüşləri Qarabağ sülh prosesini irəlilətmək üçün daha bir ümid qığılcımı yandırsa da, hələ ki ciddi hərəkətlilik yoxdur.

Üstəlik, Kreml başçısının məlum müsahibəsindən aydın oldu ki, Moskva işğal altındakı əraziləri boşaltma üçün İrəvana təzyiq eləməyə hazırlaşmır. Putin bir daha köhnə mövqeyi ortaya qoyaraq bəyan edib ki, ilk növbədə münaqişə tərəfləri öz aralarında razılığa gəlməlidir, Moskva isə bu anlaşmanın qarantlı ola bilər. Lakin hamı bilir ki, işğalçı tərəf məsələdə müstəqil deyil və bütünlüklə Moskvadan asılıdır. Bununla da dairə qapandı.

***

Belə olan surətdə Qarabağ məsələsi ətrafında situasiya təzədən əvvəlki, təhlükəli axarına qayıtmış kimi görünür, danışıqlar prosesində növbəti perspektivsiz mərhələnin, yaxud pauzanın başladığı təəssüratı yaranır. Doğrudur, Rusiya son vaxtlar problemlə bağlı aktivlik nümayiş etdirir, ancaq təkrar edirik, bu fəallıq indi daha çox növbətçi, "imitasiya" xarakteri daşıyan fəallığa bənzəyir. Yeni Rusiyanın konfliktin həllinə ciddi şəkildə girişdiyi qənaəti üçün yetərli hərəkətlilik deyil.

Ola bilsin, Suriya böhranı qlobal və regional gücləri özünə cəlb etdiyindən, Qarabağ məsələsinə diqqət zəifləyib. Ancaq aprel olayları göstərdi ki, bu konflikt özündə heç də Suriyadakı böhrandan az təhlükə potensialı daşımır. Bəs qarşıdakı aylarda Qarabağ probleminin həllində real irəliləyiş hər halda mümkündürmü? Ekspert rəyləri birmənalı deyil.

"Bu gün Dağlıq Qarabağ ətrafında formalaşan situasiya yüksək dərəcədə ağrılıdır". Bu sözləri "Vestnik Kavkaza" nəşrinə müsahibəsində Rusiya prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdko konfliktlə bağlı son durumu şərh edərkən deyib.

"Apreldəki son hərbi qarşıdurmanın nəticələri həm Bakıda, həm İrəvanda kəskin şəkildə yaşanır. Bəzən zaman yaraları sağaldır, bəzən isə əksinə, müxtəlif qəbildən emosiyaların qızışması üçün daha böyük qıcığa çevrilir. Mənim fikrimcə, Rusiya prezidentinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşlərindən sonra pauza götürülüb. Bu pauzanı saxlamaq lazımdır. Baxaq, görək payızda nə olur. Əgər siyasi nizamlamanın həlli üçün heç olmasa minimal imkan yaranacaqsa, o zaman mədəniyyət adamları, ictimai xadimlər arasında təmasları təzədən bərpa eləmək lazımdır. Bu - vacibdir. Çünki istənilən siyasi qərar insanlar arasında anlaşma tapmalıdır. Bunu isə yalnız ziyalı kəsimin nümayəndələri edə bilər" - Putinin xüsusi nümayəndəsi qeyd edib.

***

Yeni Rusiya rəsmisi, faktiki, xalq diplomatiyasının bərpasını təklif edir, ancaq bir şərtlə ki, danışıqlar prosesində müəyyən irəliləyiş olsun, nizamlamada nəhayət, gözə dəyən dönüş təmin edilsin. O da ki, təkrar edirik, hələlik görünmür. Aydındır ki, əgər konfliktin həllinə və İrəvana ən güclü təsir imkanına malik vasitəçi dövlət olaraq Rusiya bunu səmimi şəkildə istəməyincə "Qarabağ yükü" də yerindən tərpənməyəcək.

O ki qaldı xalq diplomatiyasına, indiyədək bu yöndə müəyyən cəhdlər edilib, addımlar atılıb. Yada salaq ki, vaxtilə Azərbaycandan bir qrup ziyalı, ictimai xadim Ermənistanda olub, orada düşmən ölkə rəhbərliyi tərəfindən qəbul da olunub, həmçinin əks tərəfin nümayəndə heyəti Bakıya səfər edib və eyni qaydada qəbul edilib.

Lakin bütün bunlar, xalq diplomatiyası problemin həllini dalandan çıxarmaq üçün kifayət etməyib. Bir daha nəticə hasil olub ki, Qarabağ münaqişəsi öncə siyasi müstəvidə, siyasətçilər səviyyəsində həllini tapmalı, yalnız anlaşma əldə olunandan sonra və ya onunla eyni vaxtda xalq diplomatiyası prosesə qoşulmalıdır.

Siyasi anlaşma isə gecikir. Bunun da əsas səbəbi deyildiyi kimi, konfliktin həllində əsas söz sahibi olan Rusiyanın astagelliyi, problemin köklü şəkildə həllinə böyük maraq göstərməməsidir. Ola bilsin, bunun da kökündə Moskva Qarabağ münaqişəsindən dolayı güddüyü əsas hədəflərə çatmaması durur.

Söhbət əlbəttə ki, regiona dominant qüvvə kimi Rusiya sülhməramlıların yeridilməsi və Azərbaycanı Avrasiya layihələrinə, hətta "Rusiyanın NATO-su" adlanan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşmaq planlarından gedir.

**Azərbaycanın isə Kremlin bu kimi gözləntiləri ilə bağlı mövqeyi, şərti yetərincə aydındır: öncə Qarabağ məsələsində əsaslı irəliləyiş, Dağlıq Qarabağ ətrafındakı rayonların erməni işğaldan azad edilməsi, sonra başqa inteqrasiya layihələri. Beləcə, Qarabağ məsələsində siyasi pat vəziyyəti davam edir. Aprel döyüşləri göstərdi ki, bu vəziyyəti ən radikal şəkildə məhz Azərbaycan əsgəri poza bilər.**



## Erməni politoloqdan acı etiraf: "Azərbaycan bizi qabaqladı..."

**Ermənistan Politoloqlar İttifaqının prezidenti və "Yeni Ermənistan" partiyasının idarə heyətinin üzvü Amayak Ovanisyan ölkə rəhbərliyinin siyasətini sərt tənqid edib. Ermənistan KİV-i xəbər verir ki, politoloq İlham Əliyevin diplomatiya meydanında Ermənistan prezidentini məğlub etdiyi etiraf edib (Modern.az ).**

"Ermənistan hakimiyyətinin gərginləşmiş Rusiya-Türkiyə münasibətlərinə zərbə vuraraq bu münasibətləri bir daha bərpa edilməyəcək səviyyəyə çatdırmaq üçün 8 ay vaxtı var idi. Amma onlar yatırdılar. Amma İlham Əliyev rus-türk münasibətlərinin bərpası üçün hər şeyi etdi. O, Qarabağ məsələsinin həll olunmasının qismən olsa da bundan asılı olduğunu bilirdi. İlham Əliyev bizi qabaqladı".

Amayak Ovanisyan erməni diplomatiyasının passiv olduğunu və buna qarşılıq Azərbaycanın məntiqi siyasət yürütdüyünü də deyib. "Ermənistan diplomatiyası infantil, qeyri-ciddi və passivdir. O, yalnız Qərblə Rusiya arasında körpü rolunu oynaya biləcəyi ilə bağlı çağırışlar edə bilir. Azərbaycan isə sakitcə, heç bir səs salmadan bu işi görə bildi".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

# "Gülənçilərlə bağlı məlumatı lazımi qurumlara çatdırmışıq"

## **Mübariz Qurbanlı:** "Azərbaycanda hər hansı bir təşkilatın dövləti yıxmaq cəhdi yox dərəcəsindədir"



**Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fətullah Gülən terror təşkilatının Türkiyədən sonra ikinci ölkə olaraq Azərbaycanda daha çox yayılmasından danışıb.**

Komitə sədri "Qafqazinfo"ya açıqlamasında qeyd edib ki, Fətullah Gülən adlanan qrup əslində din adı altında bir terror təşkilatıdır: "Onların məqsədi maarifçilik, din pərdəsi adı altında təşkilatı genişləndirmək, müxtəlif ölkələrdə öz təsir dairələrini yaratmaqdan ibarət idi. Bu istiqamətdə çox işlər aparıblar. Azərbaycana da müstəqilliyimizin ilk illərində bu cür qruplar gəliblər. Maarifçilik, təhsil adı altında burada istinad nöqtələri yaratmışdılar. Hazırda bunların istinad nöqtələri Azərbaycanda aradan qaldırılıb və proses davam edir. Müxtəlif siyasi qrupların da onlarla işbirliyində olduğu barədə məlumatlar vardır.

Gülənçi adlanan terror təşkilatının Azərbaycanda uzantılarının olması haqqında məlumatlar həm türk mediasında, həm də yerli mediada var. Bununla bağlı Azərbaycan hüquq-mühafizə orqanları ciddi profilaktik tədbirlər həyata keçirtməkdədir. Respublika Prokurorluğu Gülənçi qrupa qarşı cinayət işi qaldırıb. Komitə bütövlükdə bütün dini qruplarla bağlı məlumatlar əldə edərək vaxtında müvafiq orqanlara çatdırır. O cümlədən Gülənçilərlə yaxın olan qruplar barədə bizdə olan məlumatları lazımi qurumlara çatdırmışıq və birgə fəaliyyətimiz davam etməkdədir.

Azərbaycanda hər hansı bir təşkilatın dövləti yıxmaq, ictimai-siyasi sabitliyi pozmaq cəhdi yox dərəcəsindədir. Çünki bu gün Azərbaycan xalqı prezident Əliyevin siyasətini birmənalı olaraq dəstəkləyir. Belə olan şəraitdə hansısa örgütlərin fəaliyyəti nəticə verməyəcək".

# Müəllimlərin işə qəbulu bitdi, etirazlar başladı

## Müsabiqənin yekun mərhələsindən narazı qalanlar Təhsil Nazirliyi qarşısında aksiya keçirdi



**Azərbaycanın ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin yekun mərhələsi (müsahibə) başa çatıb.**

Bu barədə modern.az-a Təhsil Nazirliyindən məlumat verilib.

Məlumata görə, müsahibə mərhələsinə müvafiq keçid balını toplayıb vakant yeri tutmaq hüququ əldə edən 2 371 nəfər dəvət olunub.

Dəvət olunanlardan 269 nəfəri müsahibədə iştirak etməyib. Müsahibədə iştirak edənlərdən 1793 nəfəri müəllim adını qazanıb. Namizədlərin müsahibə nəticələri şəxsi səhifələrində yerləşdirilib.

Müsahibədən uğurla keçib müəllim adını qazanan namizədlər 30 avqustadək təyin olunduqları müəssisələrdə və ya yerli təhsili idarəetmə orqanlarında qeydiyyatdan keçməlidirlər.

Müvafiq keçid balını toplayan, lakin topladığı bal seçdiyi vakant yeri tutmaq üçün kifayət etmədiyinə görə müsahibə mərhələsinə keçmək hüququ qazanmayan və ya müsahibədə iştirak etməyən namizədlər növbəti yerləşdirmədə iştirak edə biləcəklər.

Növbəti yerləşdirmədə tutulmayan və tədris ili başlayanadək yaranan yeni vakant yerlər elan ediləcək. Növbəti yerləşdirmənin keçirilmə tarixi barədə əlavə məlumat veriləcək.

Müəllimlərin işə qəbul imtahanından yüksək bal toplayıb işlə təmin olunmayan müəllimlər avqustun 19-da Təhsil Nazirliyinin qarşısında etiraz aksiyası keçiriblər.

Bizimyol.info-nun məlumatına görə, etirazçılar bildiriblər ki, onlar imtahandan yüksək bal toplayıblar, amma müsabiqədə onlara müxtəlif maneələr yaradılıb.

Aksiyada iştirak edən müəllimlərin sözlərinə görə, Bakıda və mərkəzi rayonlarda yerləşən təhsil müəssisələrində vakant yerlərin sayı çox az göstərilir. Bəzi bölgələrdə isə vakant yerlər direktorlar tərəfindən satılır.

**Avqustun 18-də İstanbulda qətlə yetirilən kriminal-avtoritet "Rövşən Lənkəranski" (Canıyev) bir gün sonra doğulduğu Lənkəran şəhərində dəfn edildi. Lakin bir məqam var ki, heç kim Rövşən Lənkəranskini kimin öldürdüyünü müzakirə etmədi. Oxşar hal 2006-cı ildə "qanuni oğru" "Sabirabadlı Hikmət"in dəfn mərasimində müşahidə olundu. Bu gün də Hikmətin kimlər tərəfindən qətlə yetirilməsi ictimaiyyətə məlum deyil.**

# Sifarişli qətllərdə sirr pərdəsi

## Kriminal-avtoritetlərin qətllərinin üstü niyə açılmır? **Sabiq polis rəisi:** "Bir çox hallarda xüsusi xidmət orqanları bunda maraqlı olur"




"Yeni Müsavat"a kriminal-avtoritetlərin qətlləri ilə bağlı danışan **sabiq polis rəisi Mahmud Hacıyev** bildirib ki, bu kimi cinayətlərin üstünün açılmamasının bir neçə səbəbi var: "Böyük nüfuz sahibi olan "qanuni oğru"ların qətllərinin üstünün açılmamasında bir çox hallarda xüsusi xidmət orqanları maraqlı olur. Vaxtilə "Sabirabadlı Hikmət", "Masallı Mamed" yaxud da bu günlərdə qətlə yetirilən "Rövşən Lənkəranski" böyük nüfuz sahibi olan "qanuni oğru"lar idi. Bu kimi şəxslərin öldürülməsində onların fəaliyyət göstərdikləri dövlətlər maraqlıdır. Ona görə də bu şəxslərin qətllərinin üstü çox zaman açılmır. "Oğru"ların qətlləri adətən iki cür həyata keçirilir. Birincisi, bu, tam olaraq xüsusi xidmət orqanları tərəfindən həyata keçirilir, ikincisi isə oyun oynanılır. Yəni hələ sovetlər dönəmində KQB-nin müəyyən şöbəsi vardı ki, həmin şöbə istənilən adamı aradan götürüb, nüfuzdan salmaq istəyən zaman ortaya şayiə buraxırdı. Bu şayiə ölkəyə çox sürətlə yayılırdı. Hər hansı kriminal-avtoriteti aradan götürmək üçün isə misal üçün, bir nəfəri xüsusi xidmət orqanının əməkdaşı öldürür və şayiə buraxırdı ki, həmin şəxsi filan səbəbdən digər qruplaşmanın nümayəndəsi qətlə yetirib. Nəticədə qruplaşmalar arasında qarşılıqlıq yaranırdı və iki qruplaşma böyük itkilər verirdilər. Bundan başqa, həqiqətən iki qruplaşma arasında böyük "sxodka", "razborka" olur ki, nəticədə baş verən atışmada kriminal-avtoritet dünyasını dəyişir. Üçüncü variant baş verdiyi zaman hüquq-mühafizə orqanları bu qətlin açılmasında lazımi qaydada işləyirlər. Lakin kriminal-avtoritetlərin öldürülməsi daha çox yuxarıda qeyd etdiyim ilk iki məqam nəticəsində baş verir".

**M.Hacıyevə görə, nüfuz sahibi olan "qanuni oğru"ların öldürülməsi xüsusilə Rusiyada çalışan azərbaycanlılar üçün mənfi nəticələrlə müşahidə olunur:** "Misal üçün, "Sabirabadlı Hikmət"in ölümü oradakı azərbaycanlıların durumuna mənfi mənada çox təsir etdi. Rusiyada istər böyük biznes, istərsə də pərakəndə satışla məşğul olan şəxslərə, ümumilikdə azərbaycanlılara Hikmət böyük dəstək verirdi. Bu da dövlətdə bəzi şəxslərə sərf etmirdi. Elə Rövşən Lənkəranski barəsində də bunu söyləmək olar. Həmin şəxsləri ona görə dövlətdə sevmirlər ki, bu şəxslər dövlətin bütün strukturlarına təsir imkanına malik olurlar. Söhbət böyük nüfuz sahibi olan "qanuni oğru"lardan gedir. Bu adamların hüquq-mühafizə orqanlarından tutmuş, onların rəhbərliyində təmsil olunan yüksək rütbəli zabitlərə qədər, icra strukturları da daxil olmaqla, böyük təsirləri vardı. Mən bir polkovnik kimi əminliklə deyirəm ki, əgər gedib Hikmətin cinayət işini araşdırsan, onunla bağlı 20-30 səhifəlik iş tapa bilmərsən. Rövşənin də ölümü oradakı azərbaycanlıların fəaliyyətinə təsirsiz ötüşməyəcək".

Yuxarıda qeyd etdiyimiz kimi, sadə camaatın əksəriyyətində kriminal-avtoritetlərin həyatı, onların fəaliyyətlərinə maraq var. Bu barədə "Yeni Müsavat"a danışan **psixoloq Elnur Rüstəmov** bildirib ki, əslində məsələ haqqın müdafiəsi ilə bağlıdır: "Cəmiyyətdə hər zaman haqq-ədalət müdafiə olunub. Bu, həm hüquq, həm də qeyri-hüquq sferasında baş verir. Məqsəd ədalətin bərpa olunmasıdır. Bu insan da ömür boyu söylədiyimiz istiqamətdə fəaliyyət göstərən şəxsdir. Hər zaman haqqı müdafiə edən, sözün düzünü söyləyən insan cəmiyyət tərəfindən rəğbətlə qarşılanıb. Bu, bizim etno-psixologiyamızda, yazılı, şifahi ədəbiyyatımızda yer alan məsələdir. Yəni zaman-zaman insanların genetik kodu bu cür qoyulub. Azərbaycanda, xaricdə də bu belədir. Bu baxımdan insanların emosiyalarını başa düşmək olar. Lakin bir gerçəklik var ki, cəmiyyətdə indiki ajiotaj 5 gündən sonra bu qədər olmayacaq və getdikcə azalacaq. Konkret Rövşən Lənkəranskiyə gəlincə, bu adam uzun müddət Rusiyada fəaliyyət göstərən həmyerlilərimizin hüquqlarının qorunması istiqamətində müəyyən xidmətləri olub. Bu məsələni nəzərə almaq lazımdır. Doğrudur, bizim cəmiyyətin intellektual sferası da var, Lənkəranski də öz istiqamətində fəaliyyət göstərən adam olub. Məsələni başqa istiqamətə yönəltmək doğru deyil. Bizim elm adamlarımız da kifayət qədərdir. Onların hər birinin öz yolu var".

❑ Əli RAİS

# 53 min Gülən tərəfdarının şəxsiyyəti müəyyən edilib

**Türkiyənin Milli Kəşfiyyat Xidməti "ByLock" adlı xüsusi əlaqə proqramını taparaq açıblar ki, bu proqramdan Fətullah Gülən hərəkatı tərəfdarları istifadə ediblər.**

"Haber7" qəzeti məlumat verir ki, Gülən hərəkatı tərfdarları məhz bu proqram vasitəsilə bir-biri ilə əlaqə saxlayıb. Həmin proqramın açılması ilə Türkiyənin Milli Kəşfiyyat Xidməti Gülən hərəkatının 53 min tərəfadrının şəxsiyyətini müəyyən edib.

Hazırda Türkiyənin Milli Kəşfiyyat Xidməti Gülən hərəkatı tərafdarlarının 18 milyon məlumatını araşdırır.



YENİ MÜSAVAT
N 183 (6504) 20 avqust 2016

**Yeni dərs ilinin başlanmasına bir aydan daha az bir vaxt qaldığı ərəfədə valideynlər məktəb tədarükü təlaşındadırlar. Vaxt azaldıqca qiymətlər bahalaşacaq deyə düşünənlər indidən uşaqlarına məktəbli forması, çanta, dəftər-qələm almağa çalışırlar. Lakin bu il yenidən qiymətlərin qalxması valideynləri narazı salan əsas məqamlardan biridir.**

# Məktəbli bazarı: bir uşaq üçün ən azı 180 manat lazımdır

## Bu il qiymətlərin yenə də bahalaşması valideynləri daha da narazı salıb





Məlum olduğu kimi, məktəb ləvazimatları və çantalar əsasən xaricdən idxal edilir. Ötən dərs ili ilə müqayisədə hazırda dolların manata nisbətdə kursu bahalaşdığından ölkəyə gətirilən məhsulların da qiymətində artıma səbəb olur. Məktəbli formaları isə əsasən Bakı Tikiş Evində hazırlanır, yerli istehsal olsa da parça və sair tikiş materialları xaricdən alındığından bu malların da qiymətində artım var.

"Yeni Müsavat"ın müxbiri paytaxt bazarlarına baş çəkərək bir uşağın məktəbə getməsi üçün çəkilən xərci hesablayıb.

İlk olaraq başlayaq məktəbli formalarından... "8-ci kilometr bazarı"nda da hər addımda məktəbli formalarına rast gəlmək mümkündür. Qiymətlərə gəlincə, bir məktəbli dəsti orta hesabla 35 manatdır. Xatırladaq ki, eyni məktəbli formaları ötən il 25 manata satılıb. Sentyabr yaxınlaşdıqca qiymətlərin daha da bahalaşacağı istisna deyil. Məktəbli paltarına əlavə olaraq, uşaqları üçün olan jaketlərin qiyməti 5-20 manat arasında dəyişir. Məktəbli ağ köynəklərinin qiyməti isə 10-20 manat arasındadır. Onu da qeyd edək ki, valideynlər bu paltarlardan ən azı iki dəst almalıdırlar. Ayaqqabıların qiyməti keyfiyyətindən asılı olaraq, 10-30 manata arasındadır.

Məktəbli qızlar üçün saç aksesuarlarının qiyməti 50 qəpikdən başlayır, 4 manata kimi davam edir. Qızlar üçün ağ bəzəkli corablar 2 manata, kolqotqalar isə 4-5 manatadır. Buraya geyim üçün lazım olan digər paltarları və ayaqqabı da əlavə eləsək, bir məktəbli üçün ən azı 100 manat lazımdır. Əksər valideynlərin iki və ya 3 uşağı məktəbə getdiyindən bu xərc onlar üçün daha da artır.

Məktəblinin əsas ehtiyaclarından biri də çantadır. Çantaların qiyməti 10 manatdan başlayır, lakin Çin malı olan bu çantaları elə də keyfiyyətli hesab etmək olmaz. Nisbətən keyfiyyətli çantalar 25-35 manatadır. Məktəb ləvazimatlarına gəlincə, hər birinin qiymətində bir neçə qəpik də olsa artım var. Çindən gətirilən karandaşlar, qələmlər və sair nisbətən ucuzdur. OYAL firmasına məxsus məktəb ləvazimatları isə digərlərindən təxminən iki dəfə bahadır. Məsələn, adi rəngli karandaşlar 2-4 manatadırsa, OYAL-da 7 manatdır. Qələmlərin qiyməti 20 qəpikdən başlayır, dəftərlərdən 12 vərəqli 12 qəpik, 40 vərəqli 30-40 qəpik, 100 vərəqli dəftərlər isə 80 qəpik-1 manatdır. Dəftər üzlərinin qiyməti 30-80 qəpik arasında dəyişir. Məktəbli üçün lazım olan rəsm dəftəri, boyalar, plastilinlər, pozan, qələm yonan, qələm qabları, su və yemək qabı, termos və xırdavatı almaq üçün də təxminən 40-50 manat xərcləməyə ehtiyac var.

Geyim və məktəb ləvazimatlarını birləşdirsək, bir uşağın məktəb xərci minimum 150-180 manata başa gəlir. Evdə iki və ya üç uşağı məktəbə gedən valideynə dərs ilinə başlamaq üçün ən azı 400 manat lazımdır.

"Yeni Müsavat"a açıqlamasında bazardakı durumu dəyərləndirən **iqtisadçı-ekspert Rəşad Həsənov** bu bahalaşmanın gözlənilən olduğunu bildirdi: "Bu gün müşahidə etdiyimiz bahalaşam təbii bir prosesdir. Azərbaycan bu günə qədər yüngül sənayedə belə normal inkişaf yolu keçə bilməyib. Xüsusilə də məktəb ləvazimatları, o cümlədən məktəbli formalarının tikilməsi üçüm istifadə olunan materialların böyük bir qis-



mi idxal məhsullarıdır. Bu məhsullar isə xarici valyuta ilə alındığından qiymətlərində manatın məzənnəsinin ucuzlaşması fonunda bahalaşmanın baş verməsi gözləniləndir. Təəssüf ki, Azərbaycanda çox primitiv sənaye məhsulları olan məktəb ləvazimatlarının istehsalı formalaşmayıb. Eyni zamanda, son aylarda məktəb formalarının tikilməsi ilə məşğul olan bakı Tikiş Evinin rəhbərliyi tərəfindən də açıqlama verildi ki, burada sadəcə tikiş üçün lazım olan əmək qüvvəsinə, elektrikə və sair sərf olunan xərclər yerli xərclədir. Yerdə qalan bütün digər məhsullar, iynə, sap, düymə , parça və sair idxal olunan məhsullardır. Bu baxımdan bazara son məhsulun qiymətinin artırılması da qaçılmazdır".

**İqtisadçı onu da qeyd etdi ki, orta səviyyəli azərbaycanlı ailəsinin gəlirləri heç də iki uşağın məktəb bazarlığı üçün yetərli deyil:** "Azərbaycan ailələrinin gəlirlərinə gəldikdə isə orta aylıq əməkhaqqı ölkəmizdə təxminən 470 manatdır. Bu isə 290 dollara bərabərdir. Bu mənada Azərbaycan əhalisi dünya əhalisinin azgəlirli qrupuna daxildir. Qiymətlər isə hələ də neft gəlirlərinin fonunda sürətli bahalaşmanın təsiri altındadır. Vətəndaşlar əvvəlki illərə nisbətən bu il borclarının, kreditlərinin geri qaytarılmasına sərf etdikləri vəsaitlərin həcmi də iki dəfə artıb. Qiymətlərin bahalaşması da vətəndaşların istehlak qabiliyyətinə mənfi təsir göstərib. Məktəbli ləvazimatları zəruri xarakterli istehlak məhsulları olduğu üçün insanlar daha ucuz və keyfiyyətsiz məhsul ala biləcəklər. Bu isə uşaqların sağlamlığına, eyni zamanda məhsulların istifadə dövrü baxımından vətəndaşa ziyandır".

❑ **Nərgiz LİFTİYEVA**
❑ **Fotolar müəllifindir**

# İlahi yaradılışa zidd gedən falçılar...

## Falçılığı biznesə çevirən insanlarla mübarizə bir nəticə verə biləcəkmi?



**Son vaxtlar falçılara qarşı ciddi mübarizəyə başlanılıb. Daxili İşlər Nazirliyi ayrı-ayrı bölgələrdə, rayon və şəhərlərdə falçılıqla məşğul olan şəxsləri aşkara çıxarıb onlarla profilaktik söhbətlər aparır, bu cür əməllərə yol verməmək üçün onlara xəbərdarlıqlar edir.**

Falçıların inzibati və ya cinayət məsuliyyətinə cəlb olunma məsələsi artıq cəmiyyətdə ciddi müzakirə olunmaqdadır. Suallar doğurur ki, niyə bir müddət bundan əvvəl aidiyyəti orqanların gözü qarşısında televiziya kanallarında, mətbuatda genina-boluna təbliğ olunan falçılıq son vaxtlar hədəfə çevrilib? Bəzi iddialara görə bu, falçıların son vaxtlar tez-tez Azərbaycanda hakimiyyət dəyişiklikləri ilə bağlı verdiyi proqnozlarla bağlıdır. Bəs əsl səbəb nədir?

**Sosioloq Əhməd Qəşəmoğlu**nun sözlərinə görə, hökumət bununla bağlı çoxdan mübarizəyə başlamalı idi: "Amma məsləhət belədir ki, bu cür proseslərlə mübarizə aparmaq üçün inzibati cəzalardan əlavə maarifləndirmə də olmalıdır. Ona görə də kütləvi informasiya vasitələri bu işə qoşulsa məqsədəuyğun olar. Əvvəla, falçılıq kimi məsələlər İslam dinində qadağan olunmuş bir mövzudur. Həm dini, həm də sosioloji baxımdan bu çox axmaq bir işdir. Ona görə ki, müşahidələrdən də görünür ki, bu sahədə camaatı aldadan, onların həssas duyğuları ilə oynayan fırıldaqçı şəxslər həddindən artıq çoxdur. İstərdim ki, mətbuat təbliğat aparsın ki, bu cür insanların yanına getmək qorxuludur. Bəzilərində doğrudan da müəyyən qabiliyyətləri var, onlar insanların energetik hisslərinə daxil ola bilirlər. İslam dinində isə demirlər ki, falçılıq deyə bir şey yoxdur, deyilir ki, onlara yaxın getməyin".

*Qeyd edək ki, ölkəmizdəki falçıların əksəriyyətinin fəaliyyəti Quran açmaqdan ibarət olur. Çoxlarına məlumdur ki, İslam dinində Quran açma, istixarə var. Bəs görəsən istixarə falçılıq hesab olunurmu? Dinimiz falçılıq və istixarə məsələlərini necə qarşılayır?*

**Dini ekspert Kənan Rövşənoğlu** məsələyə bu cür aydınlıq gətirdi: "Hətta məşhur rəvayətdə bir ulduz falına baxan şəxsin İmam Əliyə (ə) savaşa getməyin məsləhət olmadığını, uduza biləcəyini deyir. Amma məhz bu falçının yalançı olduğunu göstərmək üçün İmam Əlinin (ə) savaşa getdiyi və qalib olduğu yazılır. Yeni İslam böyükləri hər zaman fala, öncəgörməyə qarşı olublar. Bu, İlahi yaradılışa ziddir.

Ancaq istixarə deyilən başqa bir əmək var ki, bu, falçılıq deyil, sadəcə, insan ağlının qərar verə bilmədiyi məsələdə Allahın kitabı ilə məsləhət etmək mənasındadır. Ancaq istixarə insanın keçmişi və ya gələcəyi ilə bağlı hansısa məlumat vermir.

Falçılığın tarixi İslamdan çox əvvəllərə gedir. İnsanlığın ilk vaxtlarından falçılıq, cadugərlik mövcud olub. Hətta qədim Misirdə, eləcə də bir çox qədim xalqlarda bu bir elm kimi xüsusi bir qrupun məşğul olduğu sahə olub.

Hətta rəvayətə görə, Qurani Kərimin sonuncu surələri olan əl-Fələq və ən-Nas surələri məhz Peyğəmbərə (s.ə.s) cadu edildiyi zaman endirilib. Bu surələrdə məhz caduya işarə var, cadu, falçılığa qarşı inanan insanların Allaha sığınmalı olduğu qeyd olunur.

Azərbaycanda da falçılıq çox yayılıb. Hətta sovet dövründə belə falçılıq, müxtəlif vasitələrlə keçmişdən, gələcəkdən xəbər verənlər mövcud olub. Bunun geniş yayılmasının bir səbəbi də insanlarda dini bilgilərin zəif olması, Allaha etiqadın tam olmaması ilə bağlıdır. Allaha dərindən inanmayan insanlar ilk fürsətdə bu cür falçılara üz tuturlar".

Onu da qeyd edək ki, falçılıqla yanaşı ekstrasensliklə məşğul olanların da sayı durmadan artmaqdadır. **Dini Qurumlar üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** məsələ ilə bağlı mətbuata açıqlama verərkən qeyd edib ki, ekstrasensliklə falçılığı eyniləşdirmək olmaz. Qurum sədri Tofiq Dadaşov kimi məşhur ekstrasenslərimizin olduğunu yada salaraq ekstrasensliyin dünyada qəbul olunduğunu, amma falçıların primitiv şəkildə insanları aldadıb onların vəsaitini mənimsədiyini vurğulayıb.

❑ **Xalidə GƏRAY**

# Nazirlik ana ölümlərinin səbəblərini açıqladı

**Səhiyyə Nazirliyi Azərbaycanda ana ölümlərinin ilkin səbəblərini açıqlayıb. Səhiyyə Nazirliyinin Doğuşayardım Komissiyasının sədri, Respublika Perinatal Mərkəzin direktoru Sevinc Məmmədova APA-ya açıqlamasında deyib ki, ana ölümlərinin ilkin səbəbləri iki qrupa bölünür.**




O bildirib ki, bir qrup səbəblər hamiləlikdən öncə qadında mövcud olan xəstəliklərdir: "Məsələn, anadangəlmə ürək qüsurları, böyrək xəstəlikləri, qaraciyər xəstəlikləri, revmatizm, bir sıra irsi qan xəstəlikləri, epilepsiya, vərəm. Adətən bu qrup xəstəliklər hamiləlikdən önceki dövrdə gizli keçir və yalnız hamiləlik zamanı özünü büruzə verir. Hamilə qadınlar bunu hamiləliyin gedişi ilə əlaqəli hesab edərək həkimə müraciət etmirlər. Xəstəlik ağır dekompensasiya mərhələsinə çatdıqda artıq gec olur və çox vaxt hamilə qadına yardım ləngiyir".

**S.Məmmədovanın sözlərinə görə, ikinci qrup səbəblər yalnız hamiləliklə əlaqəlidir və yalnız hamiləlik vaxt üzə çıxır:** "Məsələn, hamiləlik hipertenziyası, hestasion diabet, hamiləlik proteinuriyası, preeklampsiya, eklampsiya, ciftin vaxtından əvvəl ayrılması. Bu xəstəliklər vaxtında araşdırılıb, yardım göstərildikdə qadının həyatını xilas etmək mümkündür. Bu səbəbdən respublikada mövcud olan antenatal qulluğa dair tövsiyələrdə göstərilir ki, hər bir hamilə ilk gündən qadın məsləhətxanasında qeydiyyata düşməlidir, mütəmadi olaraq həkim nəzarətində olmalıdır, vaxtı-vaxtında müvafiq müayinələrdən keçməlidir. Hər bir normal hamiləlikdə antenatal qulluq 7 gəlişdən ibarətdir. Lakin müayinələr zamanı hər hansı bir patologiya aşkarlanarsa, həkim müvafiq stasionara daha həcmli və dolğun müayinə və müalicə məqsədi ilə göndəriş verərək hospitalizasiya etməlidir. Araşdırma zamanı məlum olur ki, hamilə qadınlar və onların yaxınları əksər hallarda hospitalizasiyadan imtina edirlər və nəticədə təəssüf ki, bədbəxt hadisə baş verir".

**S.Məmmədova qeyd edib ki, müvafiq təlimatlara uyğun olaraq, hər bir ana ölümü halı Səhiyyə Nazirliyinin Doğuşayardım Komissiyasına təqdim edilir:** "Qısa bir müddətdə mütəxəssislərə təhlilə təqdim edildikdən sonra, zəruri hallarda əlavə mütəxəssis rəylərinə verilir. Ana ölümünün nəticələri toplandıqdan sonra, xüsusi keçirilən iclasda müzakirə edilib, müvafiq qərar qəbul edilir. Çox vaxt Komissiyaya ana ölümü kimi təqdim olunan halın təhlili qadının ölüm səbəbini hər hansı bir hamiləliyə əks göstəriş olan ekstragenital xəstəlik ucbatından baş verməsi müəyyən olunur. Məsələn, ağır ürək qüsuru, vərəm, anadangəlmə böyrək qüsuru və çatışmamazlığı, idiopatik trombositar purpura və s. kimi xəstəliklər".


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Müğənninin prodüserini öldürən şəxs hakim qarşısında

### Səidə Sultanın prodüserini qətlə yetirməkdə təqsirləndirilən şəxsin məhkəməsi keçirilib



**Avqustun 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində müğənni Səidə Sultanın prodüseri Hamlet Cahangirovu qətlə yetirməkdə təqsirləndirilən Yusif Mirzəyevin cinayət işi üzrə məhkəmə prosesi keçilib. Musavat.com xəbər verir ki, hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin vəkili vəsatətlə çıxış edib. Vasif Mirzəyev vəsatətində qətlə yetirilən H.Cahangirovun borcu olduğu şəxslərin müəyyənləşdirilməsi üçün lazımi qurumlara sorğu göndərilməsini istəyib. Məhkəmə heyəti vəsatəti təmin edib.**

Məhkəmə prosesi avqustun 30-da davam edəcək.

Xatırladaq ki, qətl hadisəsi Yasamal rayonunun Zahid Xəlilov küçəsi, 523-cü məhəllədə baş verib. 1987-ci il təvəllüdlü H.Cahangirov 7 bıçaq zərbəsi ilə öldürülüb.

Hadisə ilə bağlı Yasamal Rayon Polis İdarəsinin 26-cı Polis Bölməsi və Yasamal Rayon Prokurorluğu əməkdaşlarının keçirdiyi əməliyyat nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Y.Mirzəyev həbs edilib.

Qeyd edək ki, qətlə yetirilən Hamlet Cahangirov tanınmış müğənni Səidə Sultanın prodüseri işləyib.

❑ **İ.MURADOV**




## Qubada 55 yaşlı müəllim "Facebook"da intihar edəcəyini yazıb özünü asıb

**Quba rayon sakini intihar edib. Rayonun Xaltan kənd sakini, 1961-ci il təvəllüdlü Bayram Seyidov özünü yaşadığı evdə asıb. İntiharın səbəbləri məlum deyil. İntihar etməzdən öncə o bu barədə "Facebook" səhifəsində yazıb. Uzun müddət müəllim işləmiş B.Seyidov təqaüddə olub. Faktla bağlı Quba Rayon Prokurorluğunda araşdırmalar aparılır.**

## "Kor Elçin" ləqəbli narkobaron tutuldu



**Balakən polisi kriminal aləmdə "Kor Elçin" ləqəbi ilə tanınan narkobaron, 35 yaşlı Elçin Alvasovu həbs edib. "Qafqazinfo" xəbər verir ki, Balakən rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, RPŞ-nin axtarış-əməliyyat qrupunun əməkdaşları rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin tutularaq istintaqa təhvil verilməsi istiqamətində növbəti əməliyyat-axtarış tədbiri keçirib.**

RPŞ-ə daxil olmuş məlumat əsasında uzun müddət cinayət məsuliyyətindən yayına bilən, rayonun Qazma kənd sakini, 1981-ci il təvəllüdlü Elçin Mehdi oğlu Alvasovun yaşadığı evdə və evin həyətyanı sahəsində əməliyyat-axtarış tədbiri keçirilib.

Tədbir zamanı Elçin Alvasovun yaşadığı evdən bir ədəd xaricdə istehsal olmuş barabanlı tapança və ona məxsus üç ədəd patron, salafan torbada çəkisi 1 kq 150 qram olan qurudulmuş marixuana, dörd ədəd 12 çaplı ov tüfənginə aid patronlar olan qatar, müxtəlif məqsədlər üçün istifadə edilən gecəgörmə cihazları, müxtəlif ölçülü kameralar, müxtəlif markalı mobil telefon və mobil telefon nömrələri, iki ədəd müxtəlif markalı noutbuk və digər aksessuarlar maddi sübut kimi götürülüb.

Tədbirlərin davamı olaraq Elçin Alvasovun yaşadığı evin həyətinə baxış zamanı müxtəlif banklar tərəfindən axtarışda olan "Lexus", "BMW", "Mercedes" və "VAZ 21015" markalı avtomaşınlar və bir neçə digər avtomaşınlara aid dövlət nömrə nişanları aşkar edilərək maddi sübut kimi götürülüb. Elçin Alvasov polis əməkdaşları tərəfindən tutularaq istintaqa cəlb edilib.

RPŞ-dən verilən məlumatda o da qeyd olunub ki, E. Alvasov uzun illər narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olub. O, qonşu Gürcüstan və Rusiya ərazilərində də bu fəaliyyəti ilə tanınıb.

Faktla bağlı araşdırma aparılır.


## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə.**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**







# "Lənkəranski" bu maşına minsəydi, sağ qalacaqdı...

## Dünyadakı zirehli maşınlar, onların qoruma mexanizmi və qiymət barədə bilmədiklərimiz

**Dünyada terror, qan, həyati təhlükələr artdıqca önləmlər də ona adekvat olaraq artmaqdadır. Cangüdənlər, yüksək texnoloji yeniliklər, önləyici tədbirlər... Son olaraq kriminal avtoritet Rövşən("Lənkəranski") Canıyevin qətli də bu məsələni yenidən aktual etdi. Həyatına bu qədər təhlükə olduğunu bilən adam niyə lazımi səviyyədə qorunmadı? Məsələn, onun zirehli maşını olsa, bəlkə də killerin qurbanı olmayacaqdı...**

"Yeni Müsavat" mövzunun aktuallığını nəzərə alıb, son illərin ən güclü, yüksək texnoloji standartlara cavab verən zirehli maşınları ilə bağlı araşdırma aparıb. Təfərrüata keçməzdən öncə, sizi zirehli maşınların yaranma tarixi ilə tanış edək.

### İlk zirehli maşın... ruslarındır

Öncə ondan başlayaq ki, ilk zirehli maşın II Dünya müharibəsində Almaniyada BMP "Marder" adı ilə istehsal edilib. Sonra isə eyni quruluşlu maşın ABŞ-da BMP-M2 "Bredil" adı altında satışa buraxılıb. Hərbi məqsədlər üçün istifadə edilən zirehli maşınlar daha sonra dünyanın məşhur avtomobil şirkətləri tərəfindən mülki maşınlar formasında istehsala buraxılıb. İlkin zamanlarda zirehli maşınlardan sadəcə yüksək rütbəli hərbçilərin, hərbi sənədlərin, kəşfiyyatçıların daşınması üçün istifadə edildiyi halda, sonradan mühüm şəxslərin də gündəlik həyatının vazkeçilməz atributuna çevrildi.

Digər mənbələrdə isə göstərilib ki, ilk zirehli maşın Rusiyada yaradılıb. Mühəndis Luskoy 1900-cü ildə onun ilkin ideyasını verib eskizlərini cızıb, 1902-ci ildə mühəndis Simms gücünü səfərbər edərək onu araya-ərsəyə gətirib.

Dünya tarixində zirehli maşından ilk dəfə istifadə edən siyasi lider ABŞ prezidenti Harri Trumen olub. 1949-cu ildə həyatını qorumaq istəyən prezident zirehli maşının ən ibtidai formasından istifadə edib. Sovetlərdə isə ilk zirehli maşın Staline ABŞ prezidenti Franklin Ruzvelt tərəfindən hədiyyə edilib. Hətta Stalin Tehran, Yalta, Potsdam səfərlərinə gedərkən qatardan düşən kimi ona hədiyyə edilmiş ağ rəngli zirehli "Mercedes"indən istifadə edərmiş.

XXI əsrdə də Stalinin yolunu gedən siyasətçilər, dövlət adamları, məşhur sənətçilər kifayət qədərdir. Dünyanın əksər ölkələrinin prezidentləri qarajlarında zirehli maşınlar saxlayırlar. Odur ki, bütün prezidentlərin adlarını siyahıya yazıb vaxt və yer aparmaq fikrində deyilik. Amma bu siyahıda bolşeviklərin dahi rəhbəri Vladimir İliç Lenini unutmaq olmaz. O da zamanında zirehli "Rolls Royce"dan istifadə edirdi. Onun qarajında "Renault", "Delanay Billville" və "Turket Mery" markalı avtomobillər də olub. SSRİ rəhbəri olmuş Stalin isə "ZİS-115" zirehli avtomobilindən istifadə edib. Mümkün sui-qəsddən özünü qorumaq üçün Stalin məhz bu model avtomobillə səyahət edirdi. Avtomobil Stalin adına avtomobil zavodunda istehsal olunub. Böyük Britaniyanın sabiq baş naziri Devid Kameron "Bentley State Limousines" avtomobilindən istifadə edib. 400 at gücündə olan avtomobilin maksimal sürəti 210 km/saatdır.

Eləcə də MDB məkanında bu tip maşınlardan ən çox prezidentlər və yüksək rütbəli məmurlar istifadə edir. Bu siyahıda ən çox diqqəti cəlb edən şəxs Gürcüstanın mərhum prezidenti Eduard Şevardnadze olub. Xatırladaq ki, eks-prezidenti 1998-ci ilin qışında gözlənilən ölümdən məhz zirehli maşını xilas etmişdi. Həmin il fevralın 9-da Şevardnadzenin kortejinə basqın edən terrorçular prezident maşınına qumbaraatandan və avtomatlardan atəş açmışdılar. Hadisə nəticəsində sabiq prezidentin cangüdənlərindən biri həlak olsa da, özü bədən xəsarəti almışdı.

### Dünyanın ən bahalı zirehli maşınları - 350 min dollardan 1.5 milyon dollara qədər...

Dünyanın ən bahalı zirehli avtomobillərinin qiyməti də maraq doğurur. Məlum olub ki, əsasən, sifarişlə dövlət başçıları və yüksək rütbəli məmurlar üçün hazırlanan bu maşınlar Almaniyanın məşhur avtomobil markaları tərəfindən istehsal olunur. Zirehli maşınların ən ucuzu 350 min dollardan başlayır. Ən bahalı zirehli maşının qiyməti isə 1,5 milyon dollardır.

Maşın sərnişinlərini snayper gülləsi və qrantomyotun zərbəsindən qoruyur.

İndi isə dünyanın ən bahalı 10 zirehli maşının siyahısına və o maşınların özəlliklərinə diqqət edək:

### "Lexus LS 460 L" - 300.000 dollar

"Lexus LS 460 L" problemsiz özəlliklərə sahibdir. Avtomobil müxtəlif növ zirehli maşınların istehsalçısı olan "İnkas" tərəfindən hazırlanıb. "Lexus LS 460 L" olduqca ağır olsa da, bir o qədər etibarlı və təhlükəsizdir. Orijinal "Lexus", bomba partlamalarına belə tab gətirən bir özəlliyə sahibdir.

### "BMW 750Li Sedan" - 340.000 dollar

"750Li Sedan"ı daha etibarlı və təhlükəsiz hala gətirmək üçün hazırlanmasında yüzlərlə kilo dəmirdən istifadə edilib. Maşının motoru 400 at gücündədir. Bir çox zirehli "Sedan"larda maliyyəni azaltmaq üçün ancaq arxa oturacaq və sürücü yeri təhlükəsiz vəziyyətə gətirilir. Ancaq zirehli "Sedan" təkcə qabaq oturacaqdakları deyil, arxadakıları da eyni dərəcədə qoruyur. Maşının radiator, qabaq silgəclər və benzin qabının da zirehli olması diqqət çəkən nüanslardandır.

### "Cadillac Escalade ESV" - 350.000 dollar

"Cadillac Escalade ESV" lüks ola bilməsi üçün hər hansı məsrəfdən ixtisar edilməyib. Maşının içində dəri döşəmə, parket döşəmə, böyük lcd ekranlar yerləşir. ESV, ekstra güclü texnologiyadan istifadə edilərək sıfırdan hazırlanıb. Becker, güllə keçirməyən metal və 40 mm-lik şüşəsi ilə olduqca yüksək səviyyəli bir qorumanı təmin edir.

### "Mercedes Benz S-Guard"-400.000 dollar

"Mercedes Benz" sinfinə daxil olan bu zirehli maşın bazardakı ən populyar maşınlardan biridir. Maşının xarici zirehli özəlliklərlə örtülsə də, bu, onun estetik görüntüsünə zərrə qədər də xələl gətirməyib. "Mercedes Benz S-Guard", M60 silah hücumunu dəf edəcək qədər güclü hazırlanıb. "S-Guard", bir qaz hücumu zamanı xarici deşiklərin hamısını bağlayır və maşının içinə təmiz hava verərək, öz oksigen sisremini dövrəyə daxil edir.

### "Knight XV"-629.000 dollar

"Knight XV", dünyanın ən populyar zirehli maşın istehsalçısı olan "Conquest"in xarüqələrindən biridir. "Knight XV" ancaq 100 maşınla məhdudlaşdığı üçün nadir tapılır. Maşında V10 motor, yüksək müqavimətli zireh yerləşir. Bundan başqa, maşının içində TV, bar, soyuducu, isitməli oturacaqlar və əyləncə üçün media mərkəzi də var.

### "Huron APC"-630.000 dollar

Bu maşın olduqca ağır olması ilə diqqət çəkir. "Horon" müxtəlif növ silahlara və əl bombalı hücumlara davamlı quruluşda hazırlanıb. Bu zirehli maşın hərbi müdafiədən daha çox özəl istifadə üçün təşkil edilib.

### "Audi A8 Security" - 700.000 dollar

"Audi A8 Security" isə tam zirehlidir. Amma bu zirehin fərq edilməsi bir az çətin ola bilər. "Audi A8 Security", normal lüks bir "Audi"yə bənzədilərək hazırlanıb. Bu özəl "Audi"nin tamamən gülləkeçirməz olması Alman Balistik Test Mərkəzi tərəfindən təsdiqlənib. Məhz bu marka maşın üçün istehsal prosesi son dərəcə təhlükəsiz bir atmosferdə, ixtisaslaşmış işçilər tərəfindən əllə hazırlanır. İşçilər maşının hissələrini tamamlamaq üçün 400 saatdan artıq işləyirlər. Maşın odla, atəşlə bağlı hər şeyə dayanıqlıdır. Bundan başqa, LED siqnalları, bir duman detektoru, radio qəbulediciləri və bir siqnala sahibdir.

### "Mercedes Benz G63 AMG" - 1 milyon dollar

"Mercedes Benz G63 AMG" mövcud ilan ən yaxşı zirehli limuzinlərdən biridir. "İnkas" tərəfindən istehsal edilən G63 AMG, daxili-xarici təhlükəsizliklə yanaşı, lüks olması ilə də diqqət çəkir. Bundan başqa, maşında qara dəri oturacaqlar, özəlləşdirilmiş işıqlar, gülləkeçirməz şüşə, təhükəsizlik kameraları var. s

### "Cadillac One "The Beast"-1.5 milyon dollar

"Cadillac One Beast" ABŞ prezidentini daşımaq üçün hazırlanan özəl zirehli bir maşındır. Bu "Cadillac" təxminən 1.5 milyon dollar maliyyəsindədir. Maşında yanğın söndürücü köpük, bir yanğın söndürmə sistemi, ayrılmış oksigen qaynağı, baqajda ekstra silahlar var. Aracın zirehi ağır çəlik, alüminium, titanium və seramikadan hazırlanıb. Bu xüsusiyyətlər xaricdən müdaxilə ilə maşının qapılarının açılmasını qeyri-mümkün vəziyyətə gətirib. Bundan başqa, maşın tələlərə qarşı kömək çağırmaq üçün özünün şifrəli xəbərləşmə sistemini yaradıb.

Dünyanın ən önəmli siyasi liderlərindən birinin təhlükəsizliyini təmin edən bu nəqliyyat vasitəsi eyni zamanda bir limuzin xüsusiyyətini daşıyır.

### "Kombat T98" - 1.5 milyon dollar

Bu maşın isə daha çox rus siyasətçilər və Avropadakı şahzadələr tərəfindən seçilir. Bütün özəlliklərindən əlavə, maşın almaz qatlı ağ qızılla örtülmüş pəncərəyə sahibdir. Bundan başqa, maşının 8.1 litrlik V8 motoru, gülləkeçirməz özəlliyi partlamalara dözümlü zirehlər ilə təchiz olunub.

❑ **Sevinc TELMANQIZI**











YENİ MÜSAVAT

Son səhifə

N 183 (6504) 20 avqust 2016



## Anasını öldürdü, sonra da duzlamaq istədi

Türkiyənin Bursa şəhərində 39 yaşlı şizofren xəstəsi olan Səlcuq Bakıryapan birlikdə yaşadığı 67 yaşlı anası Mazez Bakıryapanı 243 yerindən bıçaqlayıb. Daha sonra özünü də bıçaqlayan oğul evə gələn polislərə qapını açmayıb. Buna görə də polis yanğınsöndürmə və təcili tibbi yardıma müraciət edib. Hadisə yerinə gələn pilləkənli yanğınsöndürənlər birinci mərtəbədəki evin balkonuna çıxıb və qatillə danışmağa çalışıblar. Onu razı sala bilmədikləri üçünsə evə bibər qazı buraxaraq təsirsiz hala gətiriblər. Məlum olub ki, qatil anasını gecə 4 radələrində öldürdükdən sonra bacısına zəng edərək bu barədə məlumat verib. Bacısı şizofreniyadan əziyyət çəkən qardaşının dediklərinə inanmayıb. Amma səhər saat 7-də yenidən bacısına zəng edən qatil "Abla, anamı duzlayaqmı? Cəsədi iy verməsin" deyib və onu öldürdüyünü bir daha bacısına çatdırıb. Bundan sonra isə bacısı onların yaşadığı evə gəlib və pəncərədə, əlində qanlı bıçaqla dayanan, yaralı qardaşını görüb.

Hazırda S.Bakıryapanın məhkəməsi başlanıb. Ona ömürlük həbs cəzası istənilir.

# Ata-ananız vasvasıdırsa... allergik olacaqsız



Türkiyəli alimlər gigiyena dəlisi olan valideynləri düşündürəcək yeni bir araşdırma hazırlayıb. Məlum olub ki, gigiyenik atmosferdə böyüyən uşaqlarda allergiya riski çoxdur.

Ayaqyolulardakı gigiyena problemindən asılı olaraq bakterial infeksiya riski də böyüyür. Təmizkar ailədə böyüyən uşağın allergiyaya da meylliliyi varsa, məktəbdə daha tez xəstəliyə tutula bilər. Bundan başqa, şişman uşaqların da allergiyanı çox ağır keçirdiyi üzə çıxıb. Uşaqları allergiyaya meylli olan valideynlərin evdə siqaret çəkməməsi tövsiyə olunur. Alimlər bildirir ki, allergiyaya genetik bağlılığı olan və xüsusilə həssas böyüdülən uşaqların Günəş görən sinifdə oxuması məsləhətdir. Bundan başqa, həmin məktəbdə siqaret çəkilməməli və siniflərin havası tez-tez dəyişməlidir.

# Donald Trampı Amerikada "soyundurdular"

**ABŞ-ın fərqli ştatlarındakı parklara bir gecədə yerləşdirilən çılpaq Donald Tramp heykəlləri bir çox insanın marağını cəlb edib. Heykəl aksiyasını keçirənlər respublikaçı prezidentliyə namizəd barədə "kral çılpaq" mesajını vermək istədiklərini deyiblər. D.Trampın real ölçülərində olan çılpaq heykəlləri bir gecədə ABŞ-ın Nyu-York, Los-Anceles, San-Fransisko və Klivlend parklarında meydana gəlib. Heykəl aksiyasını keçirənlər INDECLINE adlanan anarxist kollektivdir. INDECLINE yazılı açıqlamasında aşağıdakıları göstərib: "Bu heykəllər vasitəsilə ABŞ tarixinin ən çox nifrət edilən siyasətçilərindən birinin iyrənc iç üzünün fiziki əksini hər kəsə göstərmək istədik".**

Nyu-York Park İdarəsi heykəllərin icazəsiz yerləşdirildiyini açıqlayaraq çılpaq Tramp heykəllərini söküb. İdarənin açıqlamasında göstərilib ki, onlar hər cür icazəsiz heykəl projesinə qarşı hərəkətə keçirlər. Donald Trampın rəsmi seçki kampaniyası tərəfindən isə bu heykəllərlə bağlı hər hansı açıqlama verilməyib.





## Həftənin 5 günü ət yemək... xərçəng riskini artırır

Həftədə beş porsiyadan artıq emal edilmiş ət yeyən xüsusi genə malik insanlarda kolorektal xərçəng riski iki dəfə artıq olur. Kolorektal xərçəng dünya boyu ən çox yayılmış və ən çox ölümə səbəb olan xərçəng növüdür. Birləşmiş Ştatlar, Kanada, Avstraliya və Avropada 1800 insan üzərində araşdırma aparılıb ki, bu da ət yeyən insanların nitratların artıq olduğunu göstərib. Qurudulmuş, hisə verilmiş, bişmiş və ya qablaşdırılmış ət məmulatlarının müalicəsi var. Amma alimlər bekon, vetçina, kolbasa, sosiska və paştet kimi məmulatları araşdırıblar.

Alimlər kolorektal xərçəngə tutulmuş 9 min insanın qanı ilə xəstə olmayan 9 min insanın qanlarındakı eyni genomu müqayisə edib. Kolorektal xərçəng 30 gen növünün birləşməsi ilə yaranan mürəkkəb bir xəstəlikdir. Tədqiqatların nəticələri bu genlərin iki variantına malik olan və hər gün emal edilmiş ət yeyən insanlarda kolorektal xərçəng riskinin yüksək olduğunu göstərib.




**QOÇ** - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılığı və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

**BUĞA** - Müəyyən çalarlarına görə, bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Pul məsələlərində ehtiyatlı olun.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimdə aktivliyi artırmağınız vacibdir. Bunun öhdəsindən gəlsəniz, ulduzlar sizə yardımçı olacaq. Yaxın adamlarınızdan xəstələnən varsa, mütləq ona baş çəkin.

**XƏRÇƏNG** - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Günün ikinci yarısı bu baxımdan daha münasibdir.

**ŞİR** - Əgər ixtiyarınızda olan bu təqvimdən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik görüş və əyləncələr bəxş edəcək. Buna hazır olun.

**QIZ** - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olmayacaq. Ailə-sevgi zəminində isə yeni mərhələyə qədəm qoyacaqsınız.

**TƏRƏZİ** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün əhəmiyyətli vaxtdır. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıq ucu gələn bütün yollara baş vurun.

**ƏQRƏB** - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Axşama yaxın darıxdığınız insanlara baş çəkməyə çalışın.

**OXATAN** - Yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

**OĞLAQ** - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

**SUTÖKƏN** - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

**BALIQLAR** - Bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Elmi laboratoriyanın həyətində insan qurban etmə mərasimi



Dünyanın ən nüfuzlu elm laboratoriyalarından birində "insan qurban etmə ayini" keçirilib. İsveçrədəki Avropa Nüvə Araşdırma Mərkəzinin (CERN) Cenevrədə yerləşən binasının qabağından çəkilən görüntülər insanların qanını dondurub. Qorxunc video görüntülərdə gecənin gec saatlarında qara geyimli bir qrup insanın CERN-in əsas meydanında bir araya gələrək, saxta bir "insan qurban etmə mərasimi" həyata keçirdiyi öz əksini tapıb. CERN sözçüsü bildirib ki, qəribə geyimli bu adamlar bir qadını qurban kimi seçərək, onu dəfələrlə bıçaqlayıbar. Artıq bu hadisə ilə bağlı istintaq başlanıb. Məlum olub ki, bu olay bir film üçün qeydə alınıb, amma bu çəkiliş üçün elm ocağından hər hansı icazə alınmayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750